**HAMLET İSMAYILOV**

# İTTİHAM

və

# SİYASİ İFLAS

(Siyasətləşdirilmiş lətifə)

**BAKI-2011**

Redaktor: Nəzrin Hamlet qızı.

Korrektor: Afaq Hamlet qızı.

Təsisçi: İsmayıl Hamlet oğlu .

**Hamlet İsmayılov. İTTİHAM və SİYASİ İFLAS.**
**Bakı-2011 "MBM" 136 səh.**

Bu kitabın mövzusu tarixi və bu gündə aktual olan siyasi və hərbi hadisələri əks etdirir.

**© Hamlet İsmayılov**
**Bakı. MBM - 2011**

# İTTİHAM

Hörmətli oxucular, "İttiham" poemasını yazmağa məni vadar edən, hələ Sovet İttifaqı dövründə mənə bəlli olan məxfi və qeyri məxfi məlumatlar əsas verib. O zaman mən Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsində çalışarkən, Mixayıl Qorbaçovun Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsində katib işlədiyi vaxtdan, prezidentliyi dövrü daxil olmaqla fəaliyyətini təhlil edərək, belə nəticəyə gəldim ki, o bəzi böyük kapitalist ölkələri, ABŞ, Böyük Britaniya, Fransa və Qərbi Almaniya rəhbərləri tərəfindən ələ alınıb və təsir agenti kimi istifadə edilir. Çünki Qorbaçovun onlardan siyasi asılılığı qabarıq şəkildə gözə çarpırdı.

Hələ səksəninci illərin əvvəlində M.Qorbaçov Mərkəzi Komitədə katib işləyərkən, nümayəndə heyətinin başçısı kimi Böyük Britaniyaya rəsmi səfərə gedəndə, mən həmkarım Etibar Babayevə dedim ki, Marqaret Tetçer Qorbaçovu hələlik təsir agenti kimi siyasi işlərə cəlb edəcək, sonra isə ABŞ-n və Almaniyanın nüfuzlu dairələri ilə birlikdə ona dəstək verərək, çalışacaqlar Sovet İttifaqı KP MK-nə Baş Katib vəzifəsinə gətirsinlər. Çünki uzun illər ərzində kapitalist ölkələri, onların xüsusi xidmət orqanları və siyasi dairələri küllü miqdarda pul buraxaraq çalışırdılar ki, SSRİ-i və Varşava müqaviləsi dövlətləri tam dağılsın, lakin buna nail ola bilmirdilər. Əgər Qorbaçov dövlət başçısı vəzifəsinə keçsə, kapitalistlərin bu arzuları çin olacaq. Əlbəttə, M.Qorbaçov bu sövdələşmədən müəyyən maddi dividentlər əldə edəcək, çünki onun tipli insanlar heç bir sazişə əbəs yerə qol çəkmirlər. İkinci, ABŞ-n siyasi dairələri və prezidentləri Ronald Reyqan və ata Corc Buş SSRİ-nin Silahlı Qüvvələrinin dağılmasını, dövlətin parçalanmasını, birinci növbədə Pribaltika respublikalarının ayrılmasını və Şərqi Almaniyanı Qərbi Almaniyaya birləşdirilməsini istəyəcəklər. Onlar bu ölkələrdə dislokasiya olan Sovet ordusunu və bütün

hərbi texnikanın çıxarılmasına çalışacaqlar. Sonralar, bunları həyata keçirmək üçün ABŞ prezidenti Adriatik dənizində, xüsusi ayrılmış hərbi gəmidə Qorbaçovla gizli görüş keçirir. Nəticədə Qorbaçov OSV-1 və OSV-2 strateji raketlərinin dairəsinə daxil olmayan S-300 taktiki raketlərin bir tərəfli qaydada məhv edilməsinə göstəriş verir. Bununla da o Sovet İttifaqına 3(üç) milyard ABŞ dolları dəyərində dəhşətli ziyan vurur. Qeyd etmək istəyirəm ki, S-300 raketlər dünyada ən mobil, əks raket qurğuları tərəfindən vurulmaz, hədəfi özü seçən, sürət baxımından ən sürətli, müasir elektronika ilə təchiz edilmiş mühüm silah idi. Aydın məsələdir ki, Qorbaçov bu işlərin müqabilində küllü miqdarda dividentlər əldə edib. Birincisi: Almaniyanın birləşməsi üçün, almanlar SSRİ-ə 20 milyard marka pul ödəyiblər. Bu pullar guya Şərqi Almaniyadan çıxan Sovet hərbi kontingentinin ittifaqın ərazisində yerləşdirilməsi üçün verilmişdir. Lakin Mixayıl Qorbaçov təcili bu ittifaqı dağıdır ki, həmən pulların mənimsəməsi üzə çıxmasın. Nəticədə, ordudan ehtiyata buraxılan hərbiçilər işsiz və evsiz-eşiksiz qalaraq, hərə öz başına çara qılır. 26 fevral 2011-ci il tarixli "Femida" qəzeti yazır ki, SSRİ-n sabiq Xarici İşlər naziri Eduard Şevarnadzanın dediyinə gora, o yaxşı bilir kim bu pulları mənimsəyib, lakin bu barədə susmağı daha üstün sayır. Bizdə bilirik bu pulları kim mənimsəyib. İkincisi, Rusiya Dumasının deputatı Viktor İlyuxin televiziya ilə çıxış edərkən, dəfələrlə qeyd etmişdir ki, Seul aeroportunda Cənubu Koreyanın Prezidenti Ro Deu Mixayıl Qorbaçova gizli şəkildə yüz min ABŞ dolları dəyərində çek vermişdir. Bu çek ona S-300 raketlərin bir tərəfli qaydada məhv edilməsinə gora ABŞ Prezidentinin adından avans şəkilində verilmişdir. Hakimiyyətə QK ÇP və sonra Boris Elsin gələn zaman, prokurorluq və xüsusi xidmət orqanları tərəfindən Kremldə, Qorbaçovun kabinetində axtarış aparılarkən, həmən çek və onun zərfi seyfindən tapılmışdır. Deputat V.İlyuxinin dediyinə görə,

Mixayıl Qorbaçov Stavrapol vilayətində rəhbər vəzifəsində işlədiyi zaman rüşvəti zərfdə (konvertdə) aldığı üçün, iş adamları onu "Mişka-konvertik" ləqəbi ilə çağırırdı. Deyilənə gora sonralar Qorbaçov, tamahına güc gələ bilmədiyi üçün, Qarabağ məsələsində də bu kimi keyfiyyətlərini üzə çıxardaraq, ermənilərin təklif etdikləri daş-qaşlara da meyl göstəribmiş. Mən bu poemada Qarabağda terror aktları nəticəsində həlak olmuş İsmət Qayıbovun, Məmməd Əsədovun, akademik Tofiq İsmayılovun, Salatın Əsgərovanın, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin, jurnalist Alı Mustafayevin, gənc operator Arifin və digərlərinin adlarını qeyd etməklə bərabər, onlara Allahdan rəhmət diləyirəm.

Sumqayıt hadisələrinə gəldikdə isə, SSRİ Baş Prokurorluğunun əməkdaşı Vladimir Koliniçenko qeyd etmişdir ki, bu hadisələr məhz erməni ekstremist qrupu və xüsusi xidmət orqanları tərəfindən yaxşı planlaşdırılmış və təşkil olunmuş tədbir idi. Zərər çəkən ermənilər KRUNK-a pul köçürməyənlər olub. (Onlar hər ay KRUNK-a 50 rubl köçürməli idi). Əsas qatil olan Eduard Qriqoryan və onun qardaşı Sumqayıtda yaşayan ermənilərin siyahısını və ünvanları dəqiqləşdirərək, onlara hücum edirlər. Sonralar Moskvada, Kremldə bu hadisələri araşdıran, Koliniçenko bu faktları yenidən gündəmə çıxardaraq, erməni ekstremistlərini ifşa etmişdir. Faktlarla üzləşən erməni nümayəndəsi, Qorbaçovun, Liqaçovun və Yakovlevin iştirak etdiyi iclası tərk edirlər. Bəli, düz söz həmişə öz yerini tapır. Mən sadə erməni xalqına iradlar tutmuram, çünki onlar öz millətindən olan ekstremistlərin qurbanına çevriliblər. Gərək erməni xalqı özü bu hadisələrdən lazımı nəticələr çıxartsın.

Mixayıl Qorbaçov xain və paxıl insan olaraq, özündən ağıllı və zəkalı adamlara, pis mənada qibtə edirdi və nəyin bahasına olursa olsun, çalışırdı onları özündən uzaqlaşdırsın. Bir müddət bizim ümummilli liderimiz dahi Heydər Əlirza oğlu Əliyev də onun təcavüzünün qurbanı olmuşdur. Mən əminəm ki, cənab

Heydər Əliyevin qəfildən xəstələnməsi məhz M.Qorbaçovun və onun ətrafında olan ermənipərəst insanların təxribatının nəticəsi idi. Çünki M.Qorbaçov çıxışlarında özü etiraf edirdi ki, cənab Heydər Əliyev tam sağlam, çevik, işgüzar, güclü, ağıllı, iradəli və dözümlü şəxsiyyətdir. Lakin ulu öndərimiz qəfil xəstələndikdən sonra, Qorbaçov yuxarıda dediklərinin əksini sadaladı. Bu da bir daha onu sübut edir ki, cənab Əliyevin sağlamlığının pozulması, məhz təcavüz nəticəsində baş vermişdir. M.Qorbaçovun təqibi tədbirləri tək Heydər Əliyev cənablarına qarşı deyildi. Bu təqiblər hətta onun ailə üzvlərinə qarşı da yönəldilmişdir. O zaman cənab İlham Əliyev də siyasi avantüranın qurbanına çevrilərək, ədalətsiz bir motivlə çalışdığı Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutundan işdən azad edilir. Heydər Əliyev cənablarının və onun ailəsinin ətrafında cərəyan edən hadisələri sonradan görkəmli kino rejissor və jurnalistlər - Vaqif Mustafayev, Andrey Konçalovskiy, Andrey Karaulov (Master vlasti - hakimiyyət ustadı) sənədli filmlərdə əks etdirərək, Azərbaycan, Türkiyə və Rusiyə televiziya kanallarında nümayiş etmişdirlər. Bu sənədli filmlərdə göstərilən məqamların əksəriyyəti mənim yazdığım "İttiham" adlı poemadakı məqamlarla üst-üstə düşür. Mən çəkinmədən deyə bilərəm ki, Mixayıl Qorbaçov SSRİ-n bir neçə respublikalarında, o cümlədən Qazaxıstanda, Azərbaycanda, Litvada, Gürcüstanda və Moldovada milli münaqişələrin yaranmasına yol verdiyi üçün, Beynəlxalq Haaqa Tribunalına verilməli idi. Bu ittiham prosesi baş verilmədiyi üçün, mən ona qarşı öz "İttihamı"-mi irəli sürərək, siyasətləşdirilmiş lətifə şer formasında yazıb, sizin müzakirəsinə çıxardıram.

Kim tarixi unudub
Bir oxusun dərindən,
Əsirlərlə rus tutub
Ermənin əlindən.

Erməni də yapışıb,
Rusların ətəyindən,
Rus bu halla barışıb,
Qovmayır pətəyindən.

Bu fəlsəfə səslənir
Həyatın səhnəsində,
Çox erməni gizlənir
Rusların kölgəsində.

Erməni güdüb rusu
Hər küçədə, hər tində,
Qorbaçovu doğrusu
Hətta, doğum evində.

Təbiət bir səhv edir
Otuz birinci ildə,
Bir "fəlakət" baş verir
Privolnaya kəndində.

Doğum evinə gəlir
Hamilə bir qadın,
Bir gün orda dincəlir
Doğur xallı övladın.

Görən deyir bu körpə
Xalis ilbiz, şeytandır,
Alnındakı bu xal, ləkə
Milli bədlik, nöqsandır.

Həmin doğum evində
Aşot həkim işləyir,
Qadın ora gələndən
Həkim onu izləyir.

Ona himayəlik edir
Çay gətirir, su verir,
Doğuş üstünə gedir
Canım, matağım deyir.

Aşot görəndə xalı
Tam dəyişir əhvalı,
Deyir kəssək ləkəni
Qan bürüyər ölkəni.

Xallı isə qan tökdü
Bizə rəhbər keçəndə,
İttifaqı da o sökdü,
Qərbi dayaq seçəndə.

Aşot deyir cərraha,
Əməliyyatdan vaz keç,
Vaxt gələr bu əjdaha,
Deyəcək ki, vəzifə seç.

Uşağa ləqəb qoyur
"Qara ləkəli Mişa",
Xalın bədliyin duyur,
Alınacaq Laçın, Şuşa.

Sən demə bu həkim
Çox uzağı görürmüş,
Mişaya tumar çəkib,
Qarabağı bölürmüş.

Mişa artıq yekəlir,
Xal ətrafı tüklənir.
Darayır saçını yana,
Dərdini çəkən ana.

Oxumaq düşür dəbə,
Mişa gedir məktəbə.
Otarır mal – qaranı,
Gəzir  çölü, aranı.

Orta savadlı çoban,
Sevir kolxozu yaman.
Sürür xışı, kotanı,
Hətta kartof atanı.

Yaş çatıbdır on beşə,
Əlində vardır peşə,
Amma təhsil gərəkdir,
Gələcəyə dirəkdir.

Mişa  baxır cibinə,
Gəlir doğum evinə,
Deyir ay Aşot əmi,
Təhsilin çatıb dəmi.

Mən anadan olanda,
Dedin təhsil verəcəm,
Görəsən bu yalanda,
Həqiqəti  görəcəm?

Aşot atır əlcəyin,
Düşünür gələcəyin.
Mişa diplom alacaq,
Vətəninə qayıdacaq.

Olar katib, ya hakim,
Onu qoyar baş həkim.
Həmdə çətin məqamda,
O dayanar arxamda.

De görüm fikrin nədir,
Moskvadır, Dərbənddir?
Mümkün olsa, Moskva,
Dərbənd nəyə gərəkdir.

Hazırla  attestatını,
Birdə ev sovqatını,
Səhər düşürük yola,
Gedirik  Stavropola.

Tapaq Sarkis, Kareni,
Verək pendir, vareni,
Bizimlə poçta getsin,
Moskvaya zəng etsin.

Ev sovqatı bir kisə
Mişa verir Sarkisə,
O da yollanır poçta,
Zəng edir köhnə dosta.

Aldım müsbət cavabı,
Gedək yeyək kababı,
Al qatara bileti,
Yola götür katleti.

Bu da mənim biletim,
Sizsiz qalardım yetim,
Əgər versəniz izin,
Mən çıxaram əvəzin.

Moskvada, vağzalda
Orda, o böyük zalda,
Qurqen səni tapacaq,
Dəftər, qələm alacaq.

Görüşdürər dekanla
İmtahana baxanla,
O həll edər  işini,
Yazdırar dörd, beşini.

Mişa yaman sevinir
Boz pencəyin geyinir,
Gedir, qalxır perrona,
Girəndə o vaqona,

Aşot tutur əlindən,
Və söz alır dilindən -
Oxu xərcin biz verək,
Axırda xeyrin görək.

Qurtardın gəl vətənə,
İş taparıq biz sənə,
İşin düşsə çətinə,
Qulluq edərik yenə.

Moskvaya çatır qatar,
Oyanır ləzgi, tatar.
O da qalxır yerindən
Nəfəs alır dərindən.

Sonra düşür perrona,
Vağzal yad gəlir ona,
Zalı böyük, içi gen,
Tapacaq onu Qurqen?

Qurqen tapır Mişanı,
Çünki vardır nişanı,
Sonra ona yanaşır,
Məktəb haqda danışır.

Deyir Mişa tələsmə,
Nədə sözümü kəsmə.
Məktəbi seçsin dekan,
Bu isə versin təkan.

Al  tələbə  biletin,
Ol dayağı  millətin.
Tez yüksəl vəzifəyə,
Qiymət verək səyə.

Budur dekan da gəldi,
Dedi - işlər düzəldi.
Görmək üçün cənnəti,
Ver hüquqa sənədi.

Daxil olub hüquqa
Mişa düşür "kruqa".
Ətrafı daşnak, dığa,
Çətin nəfsini yığa.

Sentyabrın  birində
Dəftər, qələm əlində,
Mişa, bu cılız sərçə,
Səhər yollanır dərsə.

Hüquqa vardır maraq,
Qanun oldu bir bayraq.
Səcdə  etsə də ona,
Sonra satdı milyona.

Hüquqşünas bu ulduz,
Oldu xalis dələduz.
Çox qan tökdü ölkədə,
Bir neçə dinc bölgədə.

Qalxanda hər pilləni,
O xalqa atdı gülləni,
Hətta ali kürsüdən,
Qisas aldı gürcüdən.

Bir gün bizə də qarşı,
Atdı kəsəyi, daşı.
Məlum oldu sirdaşı,
Kimdən alıb daş-qaşı.

Litov, qazaxı qırdı,
Etdi milli xəyanət,
Moldavanı da vurdu
Rumın verdi bəyanat.

Bunlar qalsın kənarda,
Görək Mişa naharda,
Kimə rast gəlir barda?
Nişanlanır baharda.

Başa vurub təhsili,
Mişa dönür vətənə,
O evlənir təcili,
Qulluq etsin bədənə.

Sonra gəlir obkoma,
Katib baxıb diploma,
Deyir Mişa, afərin,
Buradır sənin yerin.

Alır yüngül vəzifə,
Hər addımı lətifə.
Tez tanınır obada,
Partbiletli tamada.

Gəlir üçün çalışır,
Hər işlərə qarışır,
Pul görəndə alışır,
Dəllal kimi danışır.

Narahatlıq bəllidir,
Gəlir olsa, həllidir.
İşdə etsə “islahat”,
Pulu artacaq rahat.

Aşot soruşur yaşın,
Deyir dazlaşır başın,
Yəqin fikir edirsən,
Niyə bizə demirsən?

Gəl iş quraq birlikdə,
İşdən gəlir gəldikdə,
Bölək onu tən yarı,
Sevinsin evdə qarı.

Bizdə gəlir götürək,
Qarabağa ötürək,
Alaq silah, sursatı,
Qaçırmayaq fürsəti.

Erməniyə dayaq ol
Qarabağa göstər yol.
Ucaldaq heykəlini,
Öpək bürünc əlini.

Səhər gedək Sevana,
Yıx özünü divana,
Tapşıraq Balayana,
Kəssin bizə bir dana.

Balayan tapıb peşə,
Düzəlib  təzə  işə.
Gedir London, Parisə,
Dönüb pullu varisə.

Səbəbi də ondadır,
Bankları Londondadır.
İcma verir göstəriş,
Terror üçün ödəniş.

Dedilər Aqanbekyan,
Orda qaldırıb üsyan,
Deyir kimdir Balayan,
Mən dedim millət oyan.

Çünki Zori mirajdır,
Nə yeri var nə yurdu,
Zəngsiz, ucuz mesajdır,
Həmdə ki, tez qudurdu.

İcmalar hay-küy salır
Zoridən pullu alır,
Göndərir bu Abelə,
O rusu tutsun dilə.

Aşot-Mişa dostluğu,
Yaradır pul bolluğu,
Qalır Katibi yıxmaq,
Pulla edər hər axmaq.

Mişanın  ki, gətirir,
Erməni  əl  yetirir,
Keçir obkoma Katib,
Özəlləşir bazar, tibb.

Mişa dövləti atır
Onun pulunu qatır,
Pulsuz özəl şirkətə,
Qənim çıxır millətə.

Stavropolun rəhbəri
Olur dillər əzbəri.
Onun pullu "seansı"
Tənzimləyir balansı.

"Mişka-konvertik" adı,
Ləqəb ilə bağlıdır,
Buna susur arvadı,
Çünki gəlir yağlıdır.

Görək nələr baş verir
Stavropol vilayətində,
Kimi Mişa çox sevir,
Kimi yıxır çətində.

Mişaya deyir Aşot
Səni gözləyir pilot,
Az qalıbdır vaxta,
Təcili uç paytaxta.

Boşalıb katib yeri
Mərkəzi Komitədə,
Əldən ol bir az diri,
Tanısınlar qitədə.

Bəli Mişa Qorbaçov,
Moskvada verir zaçot,
Sponsoru işə qatıb,
Olur paytaxtda katib.

O ev alır Arbatda,
Köçür ora arvadda,
Moskva böyük şəhər,
Tanıyır onu bəşər.

Tələbəlik illəri,
Moskva sevgiləri,
Orda tapıb Rayanı,
Canlı pazı, payanı.

Onda şorba yeyirdi,
Buna şükür deyirdi.
İndi yeyir bal, yağı,
Millətə çəkir dağı.

Cavan katibə nədən
Qərb artırır marağın,
Bunu şübhəsiz edən,
İtirməyib darağın.

Dəvət edir Londona,
Onu Marqaret Tetçer.
Və torba tikir ona,
Bu siyasi dispetçer.

Mişa gedir görüşə,
Görüş qapalı keçir,
Qoşulur pullu işə,
Şəxsi marağı seçir.

Mişanı tapır onda,
Kəşfiyyatçı Con da.
Bilir pula hərisdir,
Con da köhnə çekistdir.

Göstəriş alır Condan,
Çıxmasın o oyundan,
İttifaqı devirsin,
Kapitalizmə çevirsin.

Sabahın prezidenti,
Olur təsir agenti,
Açır, tökür sirləri,
Qərbə gedir izləri.

Güvənərək özünə,
Sadiq qalır sözünə,
Con-Tetçer təlimatın,
Soxur xalqın gözünə.

Bu barədə yazmışam,
Dəlil, sübut tapmışam,
Açdığım o paxırda,
Nələr olub – axırda.

Əliyev də o zaman
Çalışırdı paytaxtda,
İşi çox idi yaman,
Tapılmazdı otaqda.

Çəkir dəmir yolunu,
Gedir Amur –Baykala,
Çırmalayıb qolunu,
Uzaq Şərqə yol sala.

Onun hər sözü keçir,
Büro iclasında,
Ağı qaradan seçir,
Siyasət dünyasında.

Zaman yetir vaxtına,
Baş Katib xəstələnir,
Göz tikənlər taxtına,
Hər Büroda ələnir.

Bəli, İlyiç keçinir,
Noyabrın onunda,
Yerinə çekist seçilir,
Həmən ilin sonunda.

Ölkə rəhbəri oldu
Təcrübəli bir çekist,
Hamı dedi düz yoldu,
Odur əsil kommunist.

Andropovun əməli,
Xalqa xidmət edirdi,
Qanun varmış deməli,
Kimsə basıb, keçirdi.

Lakin onu da xəstəlik,
Yaman yerdə haqlayır,
Natamam bu öhdəlik,
Xalq ürəyin dağlayır.

Baş Katibin böyrəyi,
Tam gücünü itirir,
İnfarkt vurur ürəyi,
Onu qətlə yetirir.

Büro bu ali taxtda,
Çernenkonu seçir
Qocanın da otaqda,
Günü dərmanla keçir.

Çünki bu ali rəhbər
Qripdən xəstələnir,
O da İlyiçdən betər,
Kürsüdə silkələnir.

Baş Katibin taxtına
Gözünü tikir xallı,
Bir az qalmış vaxtına,
Dayaq tapır sanballı.

Şayiə yayır yalançı -
Əliyev rəhbər keçir,
Tutur Mişanı sancı,
Dava, dərmanlar içir.

Köməkçisi Şaxnazar,
Deyir açma sən bazar,
Çalış tez get Londona,
Kürü apar Consona.

Con həll etsin işini,
Sonra ye kişmişini.
Amma orda yubanma,
Boş-boşuna dayanma.

Sən o Conla yanaşı,
Gör o Tetçer-tanışı,
Çalış aktiv olsunlar,
Səni rəhbər qoysunlar.

Vermə əldən bu taxtı,
Falçı da, fala baxdı,
Dedi artıq, vaxt yetib,
Olmalısan Baş Katib.

Saat az qalır ona,
Zəng edim Consona,
Sonra deyin Antona,
Bilet alsın Londona.

Təyyarə düşür yola,
Salonda girir rola,
Nələr desin o Cona,
Con əl atsın telefona.

Mişa çatır Londona,
Kürünü verir Cona,
Conda yeyir kürünü,
Alır onun könlünü.

Kəşfiyyatçı mürdəşir,
Marqaretlə zəngləşir,
Sakit deyir Tetçerə,
Axşam getmə heç yerə.

Mişa gəlib Londona,
Diqqət yetirin ona,
Versin sirrin yüzünü
Tutsun Ali kürsünü.

Onlar axşam görüşür,
Qucaqlaşıb, öpüşür,
Tetçer silir üzünü,
Düzəldir qaş, gözünü.

Mişa ondan soruşur,
Reyqanı isə qoşur?
Tetçer də hirsli deyir -
Bəs kürünü kim yeyir?

Verdin kürünü Cona,
Dərdini  dedin ona,
Əgər varsa vicdanı,
Qoy o qoşsun Reyqanı.

İncimə, versən möhlət,
Edərəm sənə hörmət,
Çıxaram xəcalətindən,
Keçərəm dövlətimdən.

Yaxşı keçək mətləbə,
De görüm ay tələbə,
Bir suala cavab ver
Niyə titrəyir bu yer?

Bəlkə nüvə atırsız,
Kimə gəldi satırsız?
Alver nüvəsiz gedir,
Bunu marşallar edir.

Sifariş var Misirdən,
Qalib köhnə kəsirdən,
Göndəriblər tank, raket,
Mərmi də, min paket.

Bəs Kuba raket aldı?
Xeyir, sonraya qaldı.
Kastro alacaq bizdən,
Hücum olsa dənizdən.

Açıq  qalıb məsələ,
Çətin  Fidel dirçələ,
Qalmayıb onda təpər,
Xəstədir qoca rəhbər.

Yaxşı, söylə dərdini,
Danış sözün mərdini.
Çox sağ ol ali həzrət,
İşdən almıram ləzzət.

Baş Katibim xəstədir,
Ətrafı bir dəstədir,
Əgər köçsə dünyadan,
Keçər yerinə nadan.

Liqaçova zəng edin,
Qulaq, başın dəng edin,
Büroda səs toplasın,
Yıxım Heydər qalasın.

Gedəndə al hədiyyə,
Dostun Yeqor gədəyə,
Bəs nə alım Marqaret?,
Al bir blok siqaret.

Əgər qoşsam Reyqanı,
Tərk edərsiniz Əfqanı?
Olsam dövlət başqanı,
Tökülməz puştu qanı.

Əliyevə də zəng edin,
Bu sözü bayaq dedin.
Onunla özün danış,
Əgər küsülüsən, barış.

Təki bu iş düzəlsin,
Taxt səninlə bəzənsin.
Sonra işin əyərsən,
Ayağından çəkərsən.

Qorxuram pəl vurar,
Mənə imtahan qurar,
Yola  gətirsən onu,
Qaytararam borcunu.

Deyirsən, zəhmi var,
Baxanda çökür divar?
Əgər qorxursan ondan,
Çıxart Siyasi Bürodan.

Birdə, Baş Katib olsan,
Birləşdir  Almaniyanı,
Sözünə sadiq qalsan,
Fəth edərsən dünyanı.

Sovet tamam dağılsa,
Müttəfiqlər  ayrılsa,
Yaxşı xeyrin görərsən,
Rublu funta çevirsən.

Qorbaçov elan edir
Çernenko əldən gedir,
Və qazdırır məzarı
Bəlli olur azarı.

Mixayil yeyir, tıxır,
Mərhumun yasında,
Sonra aradan çıxır,
Matəmin ortasında.

Dəstək alan qərbdən,
Amerikadan, Şərqdən,
Həmən bu xallı agent,
Təyin oldu prezident.

Təbrik aldı ABŞ-dan,
Reyqandan və Buşdan,
Təbrik etdi Kim İr Sen,
Birdə ki, keşiş Vazgen.

İnanmırdı bu xəyal,
Dönüb olacaq real,
İşə "başlayır" fəal,
Stavropollu bu dəllal.

Az işlədi birlikdə
Öndər, Mişa və Yeqor,
Çünki onlar ikilikdə,
Əliyevə qurdu terror.

Sübhü idmanla açan,
İşgüzar və diri can,
Qəfildən xəstələnir,
Büro belə ələnir?

Kim qatıbdır zəhəri
Onun xörək, aşına?
İnfarkt vurur səhəri,
Nələr gəlir başına.

Bu ürəyi ağrıdan
Paxıl, xain insandır,
Arıdan bərk sancan,
Tək zəhərli ilandır.

Öndər düşür yatağa,
Tək ayrılmış otağa,
Mişa edir qadağa,
Özündən uca dağa.

Tapşırır Baş həkimə
Tabe olsun o hökmə,
Təcrid etsin öndəri,
Qalsın bir sümük, dəri.

Rıjkov bunları bilir
Nəmli gözünü silir,
Sonra gedir  görüşə,
Nöqtə qoyur bu işə.

Təqib olar bu qədər?
Deyir Rıjkova öndər,
Misa ağın  çıxardıb,
Yenə şivən qopardıb.

O bilir  getsəm işdən,
Kim udacaq gedişdən,
Satacaq Qarabağı,
Zəbt edəcək torpağı.

Necə deyir gürcülər,
Bu tip siyasətçilər,
Qalxsa ali kürsüyə,
Bir iş görməz nisyə.

Rıjkov tapır həkimi,
Deyir nə vaxta kimi,
Əliyev burda qalacaq,
Sizdən kömək olacaq?

Sonra yığır heyəti,
Və anladır vəziyyəti,
Deyir Heydər ürəyi,
Unutmur duz, çörəyi.

Rıjkovun tez gəlməsi,
Dediyi bir kəlməsi,
Xoş bir iqlim yaradır,
Düşmən qanın qaraldır.

Əsil dost belə olar,
Dost üçün özü ağlar,
Keçər dağlar, qayalar,
Ürəyin dostda bağlar.

Üç ay çəkir xəstəlik,
Qorbaçov da tələsik,
Göndərir təqaüdə,
Qorxur öndər qayıda.

Milləti çaş-baş salan
Erməni ilə tək qalan,
Siyasi böhtan yayır,
Öndəri halsız sayır.

Sözü tutur dişindən,
Əliyev getsə işindən,
Qarabağ bizə qalacaq ,
Deyir bu Abel, alçaq.

Açır Mişa qapıların
Ermənilərin üzünə,
Qəbul edir "dostların",
Həyat verir yüzünə.

Zori, Aşot və Abel
Gəlir, gedir Kremlə,
Silva Kaputikyansa ,
Rayanı tutur dilə.

Nə axtarır erməni
Prezidentin evində,
Atıb yaşıl çəməni,
Gəlib yazın günündə.

Bu Mixayıl fitnəkar,
Heydərə tələ qurur,
Olur Vazgenə nökər,
Sonra öndəri “ vurur ”.

Seçmir ağı, qaradan,
Tam bəllidir azarı,
Götürübdür aradan,
Açmaq üçün bazarı.

Satdı vicdanın, soyun,
Mişa, Yeqor o zaman,
Qurulan siyasi oyun,
Sarsıtdı xalqı yaman.

Çünki ağıl, zəkada,
Onlar qalır geridə,
Öndər qazanan ada,
Layıq deyil biridə.

Əliyev dedi sözünü
Mixayıla gedərkən,
Ayıl, aç bir gözünü,
Namərdləri seçərkən.

Sonra bu xain rəhbər
Gizli göstəriş verir,
Ötürün evə qədər,
Görün daha nə deyir?

Qulaq asın telefona,
Bilin kimlə danışır,
Aman verməyin ona,
Görün kimlər yanaşır.

Hazırlaşsa vətənə
Dərhal kəsin yolunu,
Məlumat verin mənə,
Açmasın əl-qolunu.

Bu siyasi təqiblər,
İlhama da toxunur,
Tələ qurur rəqiblər,
Ona da əmr oxunur.

Tapşırırlar rektora,
Çıxart İlhamı işdən,
Salsan siyasi tora,
Qiymətlənər səriştən.

Bəli, qaydasız oyun,
Başlayır iş yerində,
Rektor da naşı qoyun,
Danışır lal dilində.

Təqiblər sındırmayır
Öndəri və İlhamı,
Məngənələr qırmayır,
Xalqa olan inamı.

Xalq onları səslədi,
Vətən darda qalanda,
Hətta mahnı bəslədi,
Bulud üstünü alanda.

Görək bunun fonunda
Qorbaçov nələr edir,
Siyasi-küt oyunda,
İttifaq əldən gedir.

Ağ günləri qaraldır,
Ziyan vurur ölkəyə,
Münaqişə yaradır,
Qoşun salır bölgəyə.

Çünki ali kürsüdə
Onun başı gicəlir,
Qatır konyakı südə,
İğtişaşlar dirçəlir.

Fərman çıxır adından
Araq, çaxır ləğv olsun,
Asetonun dadından,
Qoy millətlər boğulsun.

Onda bildi əhali
Acı aseton dadın,
Pozularaq əhvalı,
Öldü kişi və qadın.

Viran etdi bağları,
Şərabçılıq yığıldı,
Yandı üzüm tağları,
Meynə dibdən qırıldı.

Əks-spirt bayrağın,
O qaldırdı birindən,
Kökün kəsdi arağın,
Çaxırın da dibindən.

Dövlətin büdcəsinə
Vurdu dəhşətli zərər,
İşlər getdi əksinə,
Dedi hər şey düzələr.

Bunu görən gürcülər
Coşdu, üsyan qaldırdı,
Qoşun törətdi nələr,
Hətta desant saldırdı.

Gürcü matəm qurdu
İlin aprel ayında,
Qatil kənarda durdu,
İçdi konyak payın da.

Ölən yerdə qalmadı,
Bu qırğının önündə,
Ordu töhmət almadı,
O törətdiyi zülmdə.

Gürcülər çıxış etdi
Sovetlər iclasında.
Mixayıl fikrə getdi,
Qara ləkə başında.

Günahın yumaq üçün
Göndərdi taxıl, tütün,
İş verdi Eduarda,
Qalmasın o kənarda.

Bir lətifə danışım
Sizə Mişa haqqında,
Dedilər bu “qardaşım”
Kuryer olub vaxtında.

Bir gün Büro yığışır
Liqaçovun  bağında,
Yeqor səylə çalışır,
Mətbəxin ocağında.

Qonaqlığın gur vaxtı,
Birdən araq qurtarır,
Hamı bir-birinə baxır,
Bağ sahibin axtarır.

Bağ sahibi də Yeqor,
Bilir iş nə yerdədir,
Deyir gətirim “kaqor”,
Bir qutu var, evdədir.

Kimdir “kaqoru” içən
Dedi İlyiç yerindən,
Birdə, çaxırı seçən,
Fikirləşsin dərindən.

Yeqor başlayır saya,
Neçə araq alacaq,
Mişa buraxsa maya,
Rəhbər razı qalacaq.

Brejnev qalxır ayağa,
Çağırır  tez  Mişanı,
Deyir, getsən arağa,
Taxaram döş nişanı.

O gündən cavan katib
Tez-tez gedir arağa,
Kremldə işini  atıb,
Qulluq edir marağa.

Onun səyi, zəhməti,
Səslənir hər Büroda,
Sərin araq, hörməti,
Orda da düşür yada.

Sən demə Qorbaçov,
Büroda ən kiçik imiş,
Onu Qrişin, Liqaçov,
Arağa göndərirmiş.

Sonralar o hirslənir,
Bu qocaların əlindən,
Özünə konyak gizlədir,
Arağı kəsir kökündən.

Budur həmən lətifə,
Söylədim ki, biləsiz,
Alın dəsmal, qətfə
Göz yaşların siləsiz.

Mişa keçəndən taxtda,
Alver gedir otaqda.
Abel deyir buna bax,
Götür bu üzüyü tax.

Qaşı qara brilyantdır,
Zərgəri da  talantdır,
Soruşursan-qiyməti?
Yaşadar bir  dövləti.

İndi qol çək qərara,
Xəbər verim diyara -
Qarabağ rəsmiləşir,
Ermənilər birləşir.

Mişa deyir Abel can,
Qaçmır ki, Azərbaycan
Əvvəl satım Qorini,
Sevindirim   Zorini.

Sonra keç Qarabağa
Olsa da ondan baha,
Var  Laçını, Şuşası,
Gözəl cənnət guşəsi.

Gecə bu Kaputikyan
Gəlib əlində dərman,
Arvada sırğa verib,
Sonra olub peşman.

Əgər səndə Silvanın
Yerisən bu addımın,
Birdə görməz soydaşın,
Mənzərəsin  Şuşanın.

Sonra de Arutünyana,
Getməsin heç bir yana,
Vacib sözüm var ona,
Qolbaq taxsın qoluna.

Məqsədin bizə bəlli,
Daş-qaşdır işin həlli ,
Axan qan, sübut, dəlil,
Bir gün edəcək zəlil.

Sən "konvertik" ləqəbin
Doğrultdun Koreyada,
Rüşvəti almaq dəbin,
Orda da saldın yada.

Seul çıxıb yadından,
Orkestr himni çaldı,
Ro Deu kimin adından,
Cibinə konvert[*] saldı?

Məhz sən idin Seulda
Aldın yüz minlik çeki,
Sonra getdin iyulda,
Arvadla gördün kefi.

Qüdrətli bir dövlətin,
Başçısı  rüşvət  alır,
Tökülsün sənin ətin,
Adam məəttəl qalır.

Pulum azdı desəydin,
Pul verərdi bu dövlət,
Halal çörək yesəydin,
Söyərdimi bu millət?

Məxfi görüş keçirtdin
Adriatik,  dənizində,
Hərbi gücü itirdin,
Nə aldın əvəzində?

Gizlətsən də rüşvəti
Bildik nəyi satmısan,
Dağıdaraq dövləti
Məqsədinə çatmısan.

Sən S-300  raketin,
Qurban verdin ABŞ-a,
Belin qırdın dövlətin
Məhv edərək birbaşa.

---

[*] Konvert – zərf.

Bu  dəhşətli  ziyanı,
Sən vurdun bu ölkəyə,
Üç milyardlıq tər, qanı,
Satdın Reyqan tülküyə.

Seuldakı o rüşvət,
Nobel pulu deyildi,
Ona almışdın dəvət,
O pul rəsmi verildi.

Qatma malı, mallara,
Xalqın gözü tərəzidir,
Rüşvət olan hallara,
Bu rüşvətdir, deyəsidir.

Bunu dedi iclasda
Xalq elçisi  İlyuxın,
Kimə tapşırdın asta,
Dedin Viktoru yıxın.

Mişa-Abel söhbəti
Sonra qana çevrildi,
Satdı nəhəng dövləti,
Qarabağ da verildi.

Mişa deyir, Abel can
Qalıb orda müsəlman?
Qarabağı sayanda,
Qalıb yeddi rayonda.

Bəs orda Zəngəzurda
Azərilərin  yurdunda,
Var müsəlman ailəsi,
O torpağın yiyəsi?

Bəli əziz Mişa can
Qaldırmışıq həyəcan,
Soyqırım davam edir,
Azəri köçüb, gedir.

Hücum etdi erməni,
Soydaşımın evinə,
Sökdü evi, fermanı,
Kilsə tikdi  yerinə.

Gəldi  yük qatarları,
Qışın oğlan çağında,
Gördüm bu qadınları,
Körpə uşaq yanında.

Ayaq yalın, baş açıq,
Nazik kətan sırf palçıq.
Atıb varın, dövlətin,
Qoruyaraq  qeyrətin.

Gördüm bunu gözümlə
Tutmaz nifrət dözümlə,
Bunlar ciddi əməldir,
Münaqişəyə təməldir.

Qafandan gələn qatar,
Baş Ələt də dayandı,
Birdən Xankəndə çatar,
Vəzirov qəfil oyandı.

Buraxsaydı Qarabağa
O vaxt, o köçkünləri,
Ürək dönərdi  dağa,
Görərdik ağ  günləri.

Onda görüm erməni
Necə əl - qol açardı,
İçib qorxu dərmanı,
Qarabağdan qaçardı.

Bizdə olan erməni
Aldı gizli fərmanı,
Təcili satsın evin
Pulla bağlasın belin.

Etdi bunu erməni
Satdı evi, fermanı,
Köçdü Soçi, Yaltaya,
Bəziləri də, Maltaya.

Çoxları da bilərək
Hesabdan pul silərək,
Göndərir Qarabağa,
Orda silah almağa.

Sumqayıt şəhərində,
Dığa bıçaq əlində,
Öldürür soydaşını,
Kəsərək döş, başını.

Haykanuş da nə bilsin,
Qonşu Eduard alçaq,
Birdən mənzilə girsin,
Soxsun qarnına bıçaq.

Edik deyir Haykanuş,
Bayaq öldü Vartanuş,
Yaralıdır Marine,
Əldən çıxıb Karine.

Sizi qurban verirəm
Qarabağın  yolunda,
Gələcəyi   görürəm,
Bu dəhşətli oyunda.

O qırğın baş verəndə,
Qatil evə girəndə,
Operator erməni,
Çəkdi qanlı səhnəni.

Mən çəkərəm öləni,
Sən vur çöldən gələni,
Sağ qalsa bir erməni,
Dərhal tutarlar səni.

Sonradan bu kadrlar,
Edik cıran qarınlar,
Ekranlarda göründü,
Şər, böhtana büründü.

Bax onda bu Qorbaçov
Özündən çıxdı lap çox,
Canfəşanlıq  eylədi,
Yalan, böhtan söylədi.

Bizə ucaltdı səsin
Söylədi əxlaq dərsin,
Yoldu seyrək saçını,
Unudaraq  Laçını,

Metro partladanları,
Odlanan  vaqonları,
Xocalı  soyqırımın,
Əskipara  qırğının,

Vurulan  vertolyotu,
Odda  yanan pilotu,
Təmsil edən dövləti
Tofiq, Məmməd, İsməti.

Gənc Arifi, Alını,
Dörd rus generalını.
Tez unutdu  zatını,
Jurnalist Salatını.

Operator Çingizi*
Gəl coşdurma sən bizi,
Qaldı  ağlar  anası,
İki  körpə  balası.

Yaddaşın çox qısadır
Ədalətsiz Mixayıl,
Məsləhətçin dığadır,
Onu gözləyir Bayıl.

Qriqoryanı  tutdular,
Oldu dəlil, sübutlar,
Qaça  bilən əlindən,
Zəlil  oldu  dilindən.

Məhkəmə prosesində,
Zərər çəkmiş qismində,
Dindirildi     Marine,
Sonra bərbər Karine.

Onlar qorxdu Edikdən,
Pullu vəkil dedikdən,
Şər atdılar Məmmədə,
Qonşu Əyyub, Əhmədə.

---

* Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayev

Guya  Edik olmayıb
Bu qırğının   rəhbəri,
Qardaşı da vurmayıb,
Karinanı - bərbəri.

Məhkum oldu Eduard
On iki il müddətinə,
Az yatdı bu namərd,
Düşmədi çox çətinə.

Guya Edik cırmayıb
Zahı qadın qarnını,
Öz millətin qırmayıb,
Tökməyib al qanını.

Xislətidir millətin
Qırdırsın öz külfətin,
Təki məqsədə çatsın,
Özgəyə böhtan atsın.

Qızışdırdı  erməni,
Mişa tutdu kəlməni,
Doxsanın yanvarında
Verdi gizli fərmanı.

Yağdırdı yenə yalan
Mişa  bizim ünvana,
Bakı  edilsin  talan,
Fitva  verdi   İvana.

Basdı tankın altına
Alim sürən maşını,
Güllə vurdu alnına,
Dağıtdı göz, qaşını.

İki  gənci vurdular,
Dəhşətli ölüm oldu,
Gül kolunu qırdılar,
Üstündə buta soldu.

Rayonlarda, bölgədə
Mərmi, güllə atıldı,
Neftçalada,  Şəkidə,
Qan torpağa qatıldı.

Soyqırımı törətdi,
Rus - erməni ordusu,
Qəddarlığı  öyrətdi,
Rusa dığa korpusu.

Çox insan həlak oldu,
O yanvar gecəsində,
Azadlıq çətin  yoldu,
Biz keçdik eləsində.

Şərik çıxdı bu dərdə
Heydər-millət atası,
Dedi  açılsın pərdə,
Sözüm vardır çatası.

Gəldi nümayəndəliyə
Dedi sözün yüksəkdən,
Budur bizə  hədiyə,
Qorbaçovdan ürəkdən.

Özü  alır  hədiyyə,
Qırır bizim  milləti.
Sarılıb erməniyə
İşğal etsin dövləti.

Xalq qalxacaq ayağa,
Dirçəldəcək dövlətin,
Güc gələcək yağıya,
Görəcəksən cürətin.

Bunları sən qananda
Gec olacaq Qorbaçov,
Cəhənnəmdə yananda
Demə ha "a ya priçom".

Dahi öndər haqlıdır,
Daş ataraq bağına,
Soyqırımı bağlıdır,
Mişa sənin ayağına.

Bu barədə son sözü
Xalq deyəcək axırda,
Görübdür onun gözü
Sən canavarı naxırda.

Çatdı qisas zamanı,
Gecə qovuldun işdən,
Xalq verdi fərmanı,
Tamamlandı səriştən.

Bu QK ÇP gələndə,
Dincəlirdin Farosda,
Çevrilişi biləndə,
Qaçdı erməni dostda.

Tez yas qurdu erməni,
Sənə Cıdır düzündə,
Səsinə səs vermədi,
Çağırsan da yüzündə.

Dayaq nöqtəsi itdi,
Yerdə qaçdı altından,
Dedin Raya iş bitdi
Vuracaqlar alnımdan.

Yaxşı ki, Boris varmış,
Saldı səni yadına,
Həbsinə çox az qalmış,
Çatdı sənin dadına.

Xilas etdi ölümdən,
Və Yanayevi tutdu,
Qurtararaq zülmdən,
Günahını unutdu.

Yetim kökündə idin,
Sən Farosdan gələndə,
Yelsinə sağ ol dedin,
Diri ikən sən öləndə?

Səni kürsüdən saldı
Nifrət, ölənin qanı,
Aşot da sənsiz qaldı,
De görüm Abel hanı?

Gördün bərkə düşəndə
Qaçır səndən erməni,
Ayağın büdrəyəndə,
Çağır xalqımı, məni.

Səhər durur bu millət
Soyqırımından danışır,
Buna inan biqeyrət,
Türk xalqına sataşır.

Naşı xadim  inanır,
Guya türk onu əzib,
Türkdə qəzəb oyanır,
Böhtandan artıq bezib.

Qüdrətli türk xalqına
Yapışmayır böhtan,
Sülh yazılıb alnına,
Oxu xadim, bir utan.

Hamletdə bunu deyir
Ey ölkə rəhbərləri,
Ermənin in sözü ilə,
Qırmayın  millətləri.

**P.S.**
Ölkədə özbaşınalıq
Aşmışdı öz həddini,
Siyasətsiz  aşnalıq,
Bilməz xalqın dərdini.

Satdı orduya tankı,
Alverçi Kərim, Cəfər,
Yığdı dolları, frankı,
Etdi xaricə səfər.

Torpaqlar işğal oldu,
Didişəndə rəhbərlər,
Çoxu cibin doldurdu,
Mənəm kişi deyənlər.

Qayıtdı Heydər-ata,
Doğma elə, vətənə,
Qoymadı ölkə bata,
Ümid verdi itirənə.

Savaşı etdi davam,
Yağı düşmənə qarşı,
Vətən dayağı İlham,
Yeridi hərbi marşı.

O anda dahi Heydər,
Dinlədi öz xalqını,
Fikirləşdi bir qədər,
Qoydu gücün, ağlını.

O qaldırıldı həyəcan,
Bakıda və Gəncədə,
Oyandı Azərbaycan,
Bir qaranlıq gecədə.

Parçalanmış dövləti,
Birləşdirdi bir anda,
Ləzgi, talış millıəti,
Xilas oldu yananda.

Bircə anda dirçəltdi
Ölkəni ulu öndər,
Zirvələrə yüksəltdi,
Getmədi səyi hədər.

Ordunu tez yaratdı,
Silahla təmin etdi,
Erməninin əlindən,
Horadizi qopartdı.

Atəşkəs imzalandı,
Lakin atır qonşumuz,
Demək imza yalandı,
Sayıq olsun ordumuz.

Əsgərlər təlim keçir
Hazır olsun savaşa,
Ulu öndər gün seçir,
Qəlib çıxsın birbaşa.

Lakin ağır xəstəlik
İmkan vermədi ona,
Qurtarsın birdəfəlik,
İşğal da yetsin sona.

Ruhu şad olsun onun,
Məzarda yatsın rahat,
Məharəti oğlunun,
Bəhrə verir hər saat.

Dahinin oğlu İlham,
Dönmür ata yolundan,
Yolunu edir davam,
Dəstək alıb xalqından.

İşğal əsas mövzudur
Avropa Şurasında,
Vuruşan tək özüdür,
Bu canavar yuvasında.

Deyir erməni çıxsın
Qarabağdan, bu eldən,
Ağlın başına yığsın,
Vurulmasın o beldən.

İbrət dərsin onlara
Göstərəcək ordumuz,
Düşmən girən kollara,
Girər uzun qolumuz.

Budur həmən "İttiham",
Və Qorbaçovun iflası,
Gün olsun Əliyev İlham,
Şuşada keçirsin iclası.

## QƏLƏBƏ

"Qələbə" adlı poemanı mən İkinci dünya və Qarabağ müharibələrinə həsr etmişəm. Hər iki savaşda bizim bacı, qardaşlarımız, ata və babalarımız qəhrəmanlıq, igidlik və mərdlik göstərərək, Sovet İttifaqı və Azərbaycanın milli Qəhrəmanı adlarına layıq görülüblər. Minlərlə əsgər, çavuş və zabitlərimiz orden və medallarla təltif ediliblər. Hər iki müharibədə xalqımız böyük itkilər verdiyi üçün, mən onları bir müstəviyə qoyub, paralel xətt çəkmişəm. Yazdığım "Qələbə" şerində, mən bir neçə SSRİ və Azərbaycanın milli qəhrəmanlarının adlarını xatırlayıram. Onların sırasında **Həzi Aslanov**, **Ziya Bunyatov, Bəhiyəddin Mirzəyev, Qəzənfər Quliyev,** belorus xalqının xilaskarı **Nəcəfqulu Rəfiyev**, Bakılı **Yakov Şaxnovic** tanınmış partizanlar **Mehdi Hüseynzadə**, Fransanın fəxri vətəndaşı **Əhmədiyyə Cəbrayılov**, kəşfiyyatçı həmyerlimiz - **Rixard Zorqe, Nikolay Kuznesov**, partizan hərəkətlərinin komandirləri – **Kovpak, Viktor Maşerov** və digərləridir.

Qarabağın azadlığı və Azərbaycanın müstəqilliyi uğrunda gedən döyüşlərdə həlak olan respublikamızın xüsusi xidmət orqanlarının sabiq əməkdaşları, Azərbaycanın Milli Qəhrəmanları bunlardır: **Riyad Əhmədov, Nadir Əliyev, Eldar Məmmədov, Bəhruz Mansurov, Əmiraslan Əliyev və Faiq Cəfərov.** Poemada adları çəkilən və çəkilməyən, lakin hər iki savaşda qəhrəmanlıqla vuruşan və həlak olan bütün soydaşlarımızın qarşısında baş əyərək, onlara Allahdan rəhmət diləyirəm.

Əsirlərlə almanlar
Göz tikib qonşulara,
Qurub ciddi planlar,
Zərbə vursun onlara.

Olsa da zəngin ölkə,
Hey işğala çalışıb.
Salıb ağ günə ləkə,
Sonda özü alışıb.

Lakin ibrət dərsini
Qavramayır bu alman,
Görür işin tərsini,
Sonra da olur peşman.

Ağa deyir qaradır,
Nəfsi üstün gələndə,
Xof, böhran yaradır,
Sabit ölkə görəndə.

Baxsaq səksən il geri
Nasizmin keçmişinə,
Biz görərik **Hitleri,**
Nəzər salaq işinə.

Az qala keçsin əsr,
O bəlalı günlərdən,
**Adolf** yaddaşda gəzir,
Düşmür acı dillərdən.

Avstriyalı bu oğlan,
Nasizmi üstün sayır,
Ev, eşikdən qovulan,
Faşizmi sərbəst yayır.

Günü keçir barlarda,
Deyir dövr mənimdir,
Yazır boz divarlarda,
Nasistlər həmrəyimdir.

Çox dedilər əzəldən
Adolf  qatil  olacaq,
Faşist xaçın düzəldən,
Xalqı dərdə salacaq.

Sözünə edir əməl,
Xalqın bezdirən xain
Faşizmə qoyur təməl,
Tapır öz nasist tayın.

O **Şikelqruber Adolf**
Dəvət alır Kölndən,
Çağırır nasist Rudolf,
Köçür doğma elindən.

O Berlində  çalışır,
Çevrilişə cəhd etsin,
Siyasətə qarışır,
Ölkəyə rəhbər keçsin.

Lakin onun cəhdləri
Puça çıxır bu səfər,
Çünki pozub şərtləri,
Rəhbər olar bir nəfər.

Adolf həbs olundu
İyirmi üçüncü ildə,
Hətta bığı yolundu
Lakin girdi min cildə.

Təbliğ etdi nasizmi,
O qaranlıq zindanda,
Pislədi kommunizmi,
"Mayın kamf-"ı yazanda.

Tərcüməsi  belədir -
"Mənim  mübarizəm",
İqtidara  tələdir,
Gərək başların əzəm,

Onlara qəbir qazdı,
Qazamatda olarkən,
Hətta dedi, bu azdı,
Daralır əldə örkən.

O çıxır qazamatdan
Alır **Hitler** ləqəbin,
Öc alır camaatdan,
Bəyan edir tələbin.

Otuz üçdə baş tutur
Onun xəyalı,  fikri,
Seçkilərdə o udur,
Olur reyxin kansleri.

Yaradır ciddi qayda
Faşizmin yuvasında,
Təqiblər artsın sayda,
Deyir  hər iclasında.

Gizli agentlər gəzir
Gecə bina,  evləri,
Dinənin başın əzir,
Kəsir uzun  dilləri.

Yandırır meydanda
Marksın "Kapitalını",
Yəhudi də bu halda,
Qoruyur öz  alnını.

Məhkəmə qərarların
Bəyan etməyir faşist,
Qurur dar ağacların,
Asılır hər kommunist.

O yaradır vermaxtı,
Bölüşdürür  yerləri,
Bərkidir hərbi taxtı,
Yığır mühüm sirləri.

Pulu alır maqnatdan
Top, təyyarə düzəldir,
Tankı tökür poladdan,
Hərbi qurum dirçəldir.

Zavodlar düşür işə
Fəhlə səylə çalışır
Fürer tapıbdır peşə,
Hücuma hazırlaşır.

Bacarıqlı bu zalım
Nüvə mərkəzin açır,
Amma kəlləli alim,
Nədənsə gecə qaçır.

Bu iş vermir nəticə,
Qane etmir füreri,
Bu mərkəzə gəlincə,
Bəlli olunur yeri.

Lakin FAU raketin
Alman istehsal edir,
Ölçür gücün, sürətin,
Təyyarədən bərk gedir.

**Stalin** bunları bilir
Məlumat vardır onda,
Və sarkazmla gülür,
Agent çalışır Bonda.

ABŞ işi korlayır,
Hitleri yaman atır,
Alimin oğurlayır,
Nüvə işinə qatır.

Təsdiq olur məlumat
Bu alim barəsində,
Aparıbdır kəşfiyyat,
Yanında tələbəsində.

Hazırlanır bir nüvə,
On meqaton gücündə,
Dözməz ona at, dəvə,
Hətta səngər içində.

Partladırlar nüvəni,
O Nevada ştatında,
Hiss edirlər zərbəni,
Yerin yeddi qatında.

ABŞ bər-bər bağırır,
Stalin yatmayır rahat,
**Kurçatovu** çağırır,
Deyir nüvəni yarat.

Alim də ona deyir,
Bahalıdır bu əmək.
Təhqiqat pulu yeyir,
Edin təsirli kömək.

Stalin - millət  atası,
Deyir alim talantdır,
Onun nüvə bombası,
Müdafiəyə qarantdır.

İşə başlayır mərkəz,
Ciddi, məxfi rejimdə,
Sirri yayan hər bir kəs,
Həbs olunur yerində.

Bunlar qalsın kənarda,
Keçək nədən başladıq,
Hitlerin  hünərindən,
Biz də necə axsadıq.

Avstriyanı zəbt edir
Hitler, yığır payını ,
Varidat eldən gedir,
Bilmir pulun sayını.

Təsdiq edir Hitler,
Barbarossa planını,
Dəstəkləyir Himler -
Tökün insan qanını.

Gücləndirir hücumu,
Daxil olur Polşaya,
Yaradır Osvensumu,
Hədə gəlir qonşuya.

Hitler lagerə yığır
Xəstə, əlil,  bimarı,
Əsir,  girovu  qırır,
Bu faşizmin memarı.

Ölənləri yandırır
Odda, qaz sobasında,
Sağ qalanı sındırır
Məngənə arasında.

Təqiblər davam edir,
Müharibə önündə,
Əsirlər əldən gedir,
Yayın isti günündə.

Bir gün turist qismində,
Məndə oldum Polşada,
Hebels, Himler ismində,
Cəlladlar düşdü yada.

Konslagerdə yığılıb,
On yeddi ton baş yükü,
Sahibləri qırılıb,
Faşist qırxıb bu tükü,

Digər boksa qalanıb,
Bir vaqon ayaqqabı,
Əsir, girov odlanıb,
Qalıb bir xörək qabı.

Zaksenxauzda gördüm
Bu dəhşətli səhnəni,
Əsir yazır, mən öldüm,
Ana, axtarma məni.

Amansız o faşistlər
Hey döyüb əsirləri,
Parçalayıb bəd itlər,
Almaq üçün sirləri.

Qaçan canın qurtarıb,
Gedib Roma, Parisə,
Qalan özünü atıb,
Dərin gölə, dənizə.

Nəzər salsaq keçmişə,
Faşizmin  dövranına,
Müttəfiq də həmişə,
Boyanıb öz qanına.

Məsələn Mussolini,
Hitlerə bel bağlayıb,
Amma qanlı  əlini,
İtalyanlar  dağlayıb.

Mussolini həbs olub,
Atılır soyuq zindana,
Hitlerin gözü dolub.
Dostu boyanıb qana.

Çağırıb **Skorsenini,**
Duça haqda soruşub,
Xarab edib beynini,
Hətta özündən coşub.

Otto, bu gizli agent,
Gecə sürüb planeri,
Təcrübəli rezident,
Duçanı  alıb  geri.

Hitler qoşunu yığır
Sovetin sərhədinə,
Yaponu da çağırır,
Girsin işğal həddinə.

Kəşfiyyat məlumatın,
**Beriya** verir Stalinə,
Yəhərləyib boz atın,
Faşist girir Tallinə,

Brestdəki sərhədçilər
Böyük hünər göstərir,
Vuruşan gözətçilər,
Düşməni yerə sərir.

Stalini məyus edir
Qəfil alman hücumu,
Kremldən bağa gedir,
Yığmaq üçün gücünü.

Alman təyyarələri
Bomba atır evlərə,
Qaçır ev sakinləri,
Səpələnir çöllərə.

Düşmən alır Bresti,
Zəpt eyləyir Kiyevi,
Bombalayır Triyesti,
Kim saxlayar bu divi.

Bircə güman qalıbdır
Stalin deyir özümüzə,
Faşist Minski alıbdır,
Gülür zəif gücümüzə.

O noyabrın yeddisi,
Düşür bayram gününə,
Qalxır xalqın elçisi,
Movzaleyin önünə.

Deyir Moskva arxadır
Qaçmaq olmaz geriyə,
Casuslara   yaxadır,
Cavabdehdir Beriya.

Millət qalxır ayağa
Yağı düşmənə qarşı,
And içərək bayrağa,
Yeriyir hərbi marşı.

Alay keçir meydanı
Tez qoşulur  savaşa,
Oyan əsgər vicdanı,
Artıq daş dəyib başa.

Güclü alman ordusu
Hücuma məruz qalır,
Əks hücumu doğrusu,
Düşməni əldən salır.

Ağır tanklar altında
Faşist  atılır geri,
Paytaxtın  ətrafında,
Pərt edərək Hitleri.

Qələbəyə təkanı
Verir güclü kəşfiyyat,
Onlar seçir məkanı,
Başlayanda əməliyyat.

Qürbətlərdə çalışır
Kəşfiyyatçı çekistlər,
Oda,  közə  alışır,
Vətən naminə hisslər.

**Rixard Zorqe** də alır
Rəhbərlikdən təlimat,
Gedir, Tokioda qalır,
Yığır gizli məlumat.

Zorqe ayın sonunda
Gizli şifr göndərir -
Yaponlar bu oyunda,
ABŞ-a maraq göstərir.

Yəni canlanma vardır,
Okinavada, okeanda,
Sovetdən çox uzaqdır,
Samuraylar bu anda.

Təyyarələr qalxır,
Uçur ABŞ tərəfə,
Pilot sahilə baxır,
Bomba atır hədəfə.

ABŞ qəfil hücumda
Çoxlu qəmi itirir
Demək olar ki, onda,
Yaponun ki, gətirir.

Bəli, yapon qırx birdə
Vurdu ABŞ bazasın,
Sanki atırdı tirdə,
Dağıtdı donanmasın.

Zorgenin məlumatı
Ordumuza yol açır,
Bərpa edir həyatı,
Alman Volqadan qaçır.

Şərqdən gələn alaylar
Stalinqrada  yanaşır,
Keçir hücuma tanklar,
Düşmən səngərin aşır.

Çox çətin bu savaşda
Məğlub oldu almanlar,
General **Pauls** başda,
Tutuldu sağ qalanlar.

Ağ bayrağın birini
Qaldırmışdı general,
Gördü yara, irini,
Və təslim oldu dərhal.

Şəhər azad olanda
300 min düşdü əsir,
Bu şaxtada, boranda,
Faşist orda nə gəzir?

Əgər Zorge yerlimiz
Verməsəydi məlumat,
Qırılardı   belimiz,
Alınsaydı Stalinqrad.

Yapon onu izləyir,
Hiss edir təqibləri,
Rixard isə işləyir,
Yığır hərbi sirləri.

Bir gün o keçir ələ,
Lakin susur, danışmır,
Bağlansa da bu tələ,
Yaponlarla barışmır.

Ona hökm oxunur,
Tapılmayır  vəkili,
Güllə başa toxunur,
Daşda qalır  şəkilli.

Ölür yapon əlindən
O qüdrətli Zorgemiz,
Düşünürdü dərindən,
Azad olsun ölkəmiz.

Aldın Qəhrəman adın
Özün bunu bilmədin,
Çatdı bizə fəryadın,
Tarixdən silinmədin.

Var Bakıda heykəlin,
Park salınıb adına,
Gəlir ora qız, gəlin,
Salır səni  yadına.

Azəri oğul, qızları
Hər cəbhədə döyüşür,
Kim danırsa bunları,
İnan nüfuzdan düşür.

Bizim **Aslanov Həzi**
Çox igid, hünərlidir,
Yoxdur onun əvəzi,
Vətən üçün dərdlidir.

Məqsədi komandirin,
Qələbəni tezləşdirsin,
Və general mundirin
Muzeyə yerləşdirsin.

Həzi özü baş tankda
Od yağdırır düşmənə,
Və dərk edir hər anda,
Xidmət edir vətənə.

Ona Qızıl Ulduzu
Təltif edir komandan,
Kəsilir  erkək quzu,
Azərilərin adından.

El mahnısı "sari gəlin",
Ruh da verir Həziyə,
Qırır düşmənin belin,
Faşist gəlir lərzəyə.

Qızır tankın lüləsi,
Tər də axır kürəkdən,
Amma namərd gülləsi,
Dəyir ona ürəkdən.

Yaralanır qəhrəman,
Altında yer titrəyir,
Əcəl verməyir aman,
Çünki ayaq büdrəyir.

Yıxır nəhəngi yerə,
Doqquz qramlıq güllə,
Güllə dəyib  ürəyə,
Güman varmı dirilə?

O anlayır gerçəyi,
Gümanlı gələcəyi.
Qələbə, may ayıdır,
Lənkərana qayıdır.

Gözləyirlər obada,
Ləvəngi də sobada,
Ətrafı yaşıl çəmən,
Dərir çiçək, yasəmən,

Verir onu yarına,
Sevinir baharına,
Qucaqlayır anasın,
İki körpə balasın.

Lakin amansız əcəl,
Kəsir həyat lentini,
Qoymadı ölüm dəcəl,
Davam etsin əhdini.

Dözür bütün əzaba,
Onun həyat yoldaşı,
Tək qaldırır ayağa,
İki oğul, qardaşı.

O deyir övladına,
Səndə general olsan,
Şərəf gələr adına,
Atan kimi ucalsan.

Tofiq də arzuları,
Tam yerinə yetirir,
Tanrı bu generalı,
Mühüm işə gətirir.

Lakin xəbərsiz ölüm
Tofiqi yaxalayır,
Vaxtsız gələn zülm,
Ana qəlbini dağlayır.

Qəhrəmanın nəvəsi,
Mühüm işdə çalışır,
Generallıq rütbəsi,
Görün necə yaraşır.

Cavan Həzi amansız,
Mübarizəyə qoşulub,
Narkobaron vicdansız,
Faşistdən qəddar olub.

Bir gün nəvəm Rüfətlə,
Lənkəranda gəzirdik,
Muzeyə baxıb diqqətlə,
Büstə çiçək düzürdük,

Rüfət soruşdu məndən,
Baba, sağdır qəhrəman?
Məndə dedim ürəkdən,
Həzi yaşayır hər zaman.

Zabit **Bunyatov Ziya**
Xidmət edir Karpatda,
Bura gəlməyib toya,
Çapmaq üçün ağ atda.

Müharibə başlayır,
Ordu düşür təşvişə,
Silahı belə bağlayır,
Ziya gedir döyüşə.

İgid rəhbərlik edir,
Cərimə batalyonuna,
Vurur, Dunayı keçir,
Davam edir yoluna.

Onun mərd əsgərləri,
Tissada ponton salır,
Hitlerin nökərləri,
Hücuma məruz qalır.

Ziya Qızıl Ulduzu
Alır gedən döyüşdə,
Qırır, çatır quduzu,
İşlədərək söyüş də.

Uçur alman qalası,
Ziya hücum edəndə,
Elin igid balası,
Lövbər salır Berlində.

Təyin olur Berlində
Komendant müavini,
Orda faşist  elində,
O qoruyub Stalini.

Qalıb kimi qayıdır
Vətənə bu qəhrəman,
Erməninin vayıdır,
Gətirib dərdə dərman.

Qarabağ salnaməsin
Alim yazır bir anda,
Deyir qəti kəlməsin,
Düşmən kəsib, asanda.

Açır  astarın, üzün,
Erməni millətinin,
Hər yerdə deyir sözün,
Seçir yolun çətinin.

Cəbhə  mübarizliyi
Qalıb onun canında,
Əsl kişi  mərdliyi,
Qaynayırdı qanında,

Alim Andrey Saxarov,
Bir gün gəlir görüşə,
Deyir düşmüşük girov,
Tutma bizi söyüşə.

Onun Bonner arvadı,
Erməni mənşəlindən,
Qarabağ üçün yalvardı,
Zəlil  oldu  dilindən.

Ziya coşdu, hirsləndi,
Hətta çıxdı özündən,
Verək torpağı, kəndi,
Belə çıxır sözündən?

Çıxın, rədd olun burdan,
Torpaqlardan pay olmaz.
Sizi puldur qudurdan,
Birdə ki, Abel qanmaz.

Kor, peşman getdilər
Çağırılmamış qonaqlar,
Təhqir, söyüş eşitdilər,
Qoy kar olsun qulaqlar.

Sərrast idi söz daşın
Məna vardı kəlmədə,
Vurdu səni soydaşın,
Güldün acı ölümə də

Qarabağ haqq yolunu,
Dəf edirdin  sürətlə,
Qırdı namərd qolunu,
Hansı  ağıl, cürətlə.

Səni vuran bu alçaq,
Xalqı vurub arxadan,
Kim verib ona bıçaq,
Vursun onu yaradan.

Köçdü əbədiyyətə,
Tarixçi, sərkərdəmiz,
Xidmət etdi millətə,
Azad olsun ölkəmiz.

Müharibə sədası
Çatıbdır Naxçıvana,
Gəlir Hitler  bəlası,
Güc düşəcək İvana.

Naxçıvanın torpağı
Babəklər yetişdirib,
Onlar da  yağıları,
Yer üzündən itirib.

Qatar çatır cəbhəyə,
Vaqon dolu əsgərlə,
Silah verin hərəyə,
Deyir zabit hünərlə.

Vətənimiz dardadır,
Biz gedirik döyüşə,
Qızıl üzük yardadır,
Toyum qalır görüşə.

**Quliyev Qəzənfər**
Topçu olur  alayda,
Hər atəşi bir zəfər,
Faşist azalır sayda.

Hər döyüşdə igidlik
Göstərir Arif, Cəfər,
Bu da növbəti mərdlik,
Tankı vurur Qəzənfər.

Qələbəyə az qalmış
Yaralanır qəhrəman,
Candan qanı azalmış,
Canın verir o zaman.

Aldın qəhrəman adın,
Heç taxmadın ulduzu,
Fəxr edəcək övladın,
Məhv etmişsən quduzu.

Cəhri əhli ucaldıb,
Vətənində büstünü,
Çiçək, dərdi azaldıb,
Örtüb büstün üstünü.

Sənə baş əyir Cəhri,
Hey gözləyir yolunu,
Sənsən vətənin fəxri,
Xalq unutmur oğlunu.

İkinci bir qəhrəman
Ordubadda doğulur,
Onun əlindən alman,
Qan içində boğulur.

Tankçıdır **Nəcəfqulu**
**Rəfiyev** soy adında,
Keçdiyi cəbhə yolu,
Qalıb xalqın yadında.

Baranoviç  şəhəri
Faşistlə zəbt edilir,
Alman ordu rəhbəri,
Şəhər əhlin bezdirir.

Salır əsir, girovu
Şəhərin kilsəsinə,
Deyir vurun alovu,
Millət gəlsin səsinə.

Əhali görsün sonda,
Necə yanır insanlar,
Bəlkə deyərlər onda,
Hardadı partizanlar.

Xəbəri alan tankçı,
Qəfil girir  şəhərə,
Nəcəf, əlində qamçı,
Çəkir dərindən nərə.

O yanğından qurtarır
Qadın, uşaq, qocanı,
Yeni həyat qaytarır,
Ucaldır Azərbaycanı.

Kilsədən çıxan uşaq
Tankçını qucaqlayır,
Basır bağrına qoçaq,
Sevincdən ağlayın.

Fotomüxbir o zaman,
Qeydə alır səhnəni,
Sonralar odda yanan,
Axtarır sərkərdəni.

Beloruslar bildirir
Təşəkkürün igidə,
Əsir düşən dindirir,
Yada salır indidə.

Rəfiyevdir xilaskar,
Odur canlı qəhrəman,
Bunu xalq deyir aşkar,
Verin adına fərman.

Üç fərman verildi
Bu tankçının adına,
Xoş sözlərdə deyildi,
Qəhrəman övladına.

Kremlə dəvət etdi
Kalinin qəhrəmanı,
Cəbhədən ora getdi,
Çatdı təltif zamanı.

Verildi Qızıl medal
Tarixə saldı adın,
Alqışladı bütün zal,
Bu Qəhrəman övladın.

Təyyarəçi **Züleyxa**
Cəsarətlə vuruşur,
Alman da baxa-baxa,
O qız kimdir, soruşur?

Həcər hünərli bu qız,
Almana qənim çıxır,
Yenə bu parlaq ulduz
Messeri vurur yıxır.

O cəbhədən qayıdır
Sinə dolu medalla,
Gənc nəsli  ayıldır,
Uçsun göydə inamla.

Sizi səma gözləyir,
Gələcək şahinləri,
Mənfur qonşu izləyir,
Qoy titrəsin dizləri.

O ruh verir gənclərə
Səmada lövbər salsın,
Yiyə dursun sirlərə,
Göydə izləri qalsın.

Fransızlar qapıların,
Açır alman üzünə,
Faşist yığır pulların,
Kötək vurur yüzünə.

İşğalçı şampan içir
Parisin barlarında,
Gözəl qızları seçir,
Şəhərin bulvarında.

Bəli, faşist at çapır,
Başsız qalan ölkədə,
**Cəbrayılov** çara tapır,
Gizlənməyir kölgədə.

Partizan **Əhmədiyyə**
Görür milli əzabı
Göndərir bir hədiyə,
Çəkmək üçün hesabı.

Açır faşist qutunu
Baxmayır tərkibinə
Dağılır ev sutunu
Divar çökür dibinə.

Partlayır yeməkxana
Uçur dam, divarlar,
Dağılır mehmanxana,
Həlak olur almanlar.

Cəsarətli partizan
**De Qolun** silahdaşı,
Olur tarixi yazan,
Fransızlarla yanaşı.

Cəbrayılovu arayır
Dəstə rəhbəri De Qol,
Partizan **Mişelə** dair,
Verir fərman, çəkir qol.

Artıq savaş qurtarır,
De Qol ölkə başqanı,
Partizanın axtarır,
Bu da Şəki ünvanı.

Dəvət edir Parisə
Şarl bu qəhrəmanı,
Dövlət rəsmləri isə,
Əbədiləşdirir adını.

Şarl, özü ilə gəzdirir,
Bizim Əhmədiyanı,
Adına medal yazdırır.
Valeh edir dünyanı.

İgid **Yakov Şaxnoviç**
Yaralanır savaşda,
Ayaqdan olur iflic,
Bu əsgər cavan yaşda.

Məhv edirdin yağını
Qızıl Ulduzlu əsgər
İtirsən də ayağını,
Əziyyətin buna dəyər.

Odlu yollar keçmisən,
Xalqım bilir dərdini,
Sən Bakını sevmisən,
Bakı sevir mərdini.

Millətin əzab çəkib
Quduz, faşist əlindən,
Məzarında gül əkib,
Rəhmət deyib dilindən.

Səni tarixə yazan
Azərbaycan xalqıdır,
Tapılmaz onu pozan,
Şərəf qəlbə bağlıdır.

Adriatik sahili,
**Mehdinin** düşərgəsi,
Yaxşı bilir hər dili,
Partizan sərkərdəsi.

O faşist yuvasında
Keçirir əməliyyat,
SS canının vayında,
Əldən gedir bu həyat.

Çoxlu itkilər verir
Faşistlərin ordusu,
O zərbəni gözləmir,
Mixaylodan doğrusu.

Karranti satır onu
Bir ətək qızıl pula,
Çatsa da o an sonu,
Mehdi dönməyir qula.

Partizan hücum edir,
Əlində bir qumbara,
Faşistə qarşı gedir,
Çəkilməyir dağlara.

İgid verməyir aman,
Almanlara o anda,
Partlayış olur yaman,
Qumbaranı atanda.

Onu qəhrəman sayır
İtalyan, bolqar, macar,
Yaxşını, pisdən ayır,
Mehdi kimi gəl bacar.

Öndər verdi qərarı,
Ona heykəl ucaldı,
Heyf onun məzarı
Orda qürbətdə qaldı.

Bu torpaqda yarandı
Qəhrəman atıcı alay,
Cəbhələrə yollandı,
Absəddin, Ayaz, Altay.

Alay şəhərlər alır
El bayrağı əlində,
Faşisti gücdən salır,
Hətta orda Berlində.

Qəbələli Absəddin,
Xidmət edir alayda ,
Faşist aşsa da həddin,
Azalır artıq sayda.

Atır  təhsil ocağın,
Hələ üçüncü kursda,
Ata  deyir, afərin.
Get zabit ol orduda.

Vuruşur igid zabit
Kapitan  rütbəsində,
Özü təmkinli, sakit,
Medallar  sinəsində.

Mərmi partlayır birdən,
Yaxşıdır ki, dəyməyir,
Qulaq batır səsindən.
Məmmədovu əyməyir.

O atır qumbaranı
Düşmən olan səngərə,
Görür qanlı yaranı,
Od vurub faşistlərə.

Qələbənin sorağın,
O eşidir  Polşada,
Çəkir saça darağın.
El, oba düşür yada.

Sağ qayıdır vətənə,
Olur görkəmli alim,
Kömək edir yetənə,
Bu hərbiçi və müəllim.

Bir gün ürək ağrısı
Yaman tökür hirsini
Gəlir cənnət pərisi,
Aparır Absəddini.

Onun oğlan nəvəsi,
Oxşayır babasına,
Var hərbiyə həvəsi,
Apar döyüşdə sına.

Absəddin də böyüsün,
Mütləq  zabit  olacaq,
Bu erməni  sürüsün,
Qarabağdan qovacaq.

Tək deyildir Absəddin
Həmin məşhur alayda,
Vuruşan **Bəhiyəddin,**
Topla verir  fayda.

Ağır gündə dost gərək
Dayaq olsun dostuna,
Edir əsgərə kömək,
Faşist girsə postuna.

Onlar cəngə başlayır
Mozdokun ətrafında,
Faşisti top qarşılayır,
Məhv edərək xofunda.

Qara Dəniz sahili,
Kiçik Torpaq savaşı,
Hünər vardır daxili,
Bu mərdliklə yanaşı.

Qurtuldu Nikolayev,
Sonra gəlir Odessa,
Onda dedi **Mirzəyev,**
Bu Karpat, bu da Tissa.

Qırx üçün savaşında
Azad oldu Taqanroq,
Topçu kaska başında,
Dedi bu da Krivoy Roq

Faşist yanır, odlanır
Alaydı bunu edən,
**Taqanroqçu** adlanır
Düşmən üstünə gedən.

Mərmi gətirir əsgər,
Doldurur topu birdə,
Əzab-əziyyətə dəyər,
Faşist uyur qəbirdə.

Döyüş gedir cəbhədə,
Hər qarış torpaq üçün,
Alman beton gövdədə,
Hiss edir topun gücün.

Mirzəyev bu savaşda
Qəhrəman adın alır,
Hünərə bax bu yaşda,
Düşməni əldən salır.

İgid dönür vətənə
Absəddini soruşur.
Bəlkə düşüb çətinə,
Quldurlarla vuruşur.

Absəddin isə çalışır
Həmən ali məktəbdə,
Dosent elmə alışır,
Fizmat olan cəbhədə.

Doğma elim Sabirabad
Axır Kürün, Arazın,
Hər tərəf yaşıl, abad,
Gözəldir qışın, yazın.

Adın, Sabir adıdır,
Ruh verirsən insana,
Hər əsgər övladındır,
Mərd oğlunu min sana.

Ailəmiz  böyük idi,
Bir bacı, altı qardaş,
Atam öz sözün dedi,
Gəlir bəla, hazırlaş.

Bu şərəfsiz savaşı,
Hitler özü başlayıb,
Ağrıyacaq göz, başı,
Çünki bizi daşlayıb.

Əvvəl **Ayaz** qardaşım,
Ən böyükdən kiçiyi,
Dedi çatıbdır yaşım,
Gəlir barıtın iyi.

Ana götür, al bunu,
Qalsın bu üzük səndə,
Kim toy edər bu günü,
Qəm, qüssədir vətəndə.

Get vidalaş o yarla,
Söhbət eylə doyunca,
Danışmasın divarla,
Məktubunu alınca.

Bir ay keçdi o gündən
Ayazdan məktub aldıq,
Yazdı tarla, əkindən,
Kerçdə lövbər saldıq.

Sonra hərbi xidmətə,
Getdi böyük qardaşım,
Xidmət etdi dövlətə,
Pozulmayıb yaddaşım.

Sərrast atır Əlağa,
Mayor deyir afərin,
İndi də qalx bu dağa,
Şanlı keçsin zəfərin.

Təyin edirlər onu
Kəşfiyyat komandiri,
Faşistin çatır sonu,
Hazırlayıb kəndiri.

Bir gün yazdı ki, ata,
Ayazdan nə xəbər var,
Cavab vermir məktuba,
Hövsələmi edib dar.

Bəlkə ölübdür Ayaz
Anam məndən gizlədir,
Sən isə düzünü yaz,
Soruşur dostu Nadir.

Ata, bu müharibədir,
Qurbansız da keçməyir,
Baxmır yaşlı, cavandır,
Ağı, qaradan seçməyir.

Cavab verməyir atam,
Deyir bir az gözləyək,
Bəlkə ölməyib balam,
Komissarı da dinləyək.

Keçir üstündən bir az,
Xəbər gəlir cəbhədən,
Sizin oğlunuz Ayaz,
Həlak olub qəlpədən.

Ölüm böyük kədərdir
Necə dözəcək anam,
Təsəllilər əbəsdir,
Əcəl çatıbsa tamam.

Rayonun komissarı,
Təsdiq edir ölümün,
Kerçdə qalıb məzarı,
Görüb faşist zülmün.

Atam yazdı məktubda
Qardaşım  Əlağaya,
Ayaz yetib sübuta,
Aman vermə yağıya.

Məktubu aldı qardaş
Və sıxıldı bir küncə,
Ağladı yavaş, yavaş,
O ürəkdən bir gecə.

Qardaşımın qanını
Mütləq sizdən alacam.
İtirsəm də canımı,
Sizi əldən salacam.

And içərək Qurana
Faşistə qurur yası,
Tutur tankı borana,
Budur qardaş qisası.

Faşist atır minanı
O olan istehkama,
Silkələyir  binanı,
Zərbəsi dəyir dama.

Əlağa  yaralanır,
Qəlpə dəyib ayağa,
Yaxşı ki, tez sağalır,
Qapanmayır yatağa.

Yenə gedir döyüşə
Andına sadiq qalır.
Keçir müqəddəs işə,
Düşməni əldən salır.

Faşistləri mələdir
Atəş açır qaçana,
Hər yer mina, tələdir,
Faşist dönür siçana.

Atam da razı qaldı
İgid, oğul, baladan,
Qardaş qisasın aldı,
Sağlam çıxdı bəladan.

Kimlər qalıb yadımda,
O dörd yüz on altıdan,
Qoy bilsin övladım da,
Mənim bu kitabımdan.

Ağamaliyev Məmməd
Əhmədov Əmrah
Heydərov İlyas
İsmayılov Ağamirzə Əli oğlu – əmim
İsmayılov Ayaz İsmayıl oğlu – qardaşım (Kerç uğrunda döyüşlərdə həlak olub).
İsmayılov Əlağa İsmayıl oğlu – qardaşım, yaralanıb
Mahmudov Mehdi – polkovnik.
Məmmədov Absaddin Ağabala oğlu, qayınatam.
Məmmədov Sədrəddin – polkovnik.
Musayev Musa.
Səfərov Ağaşirin.
Ömərov Məmməd.
Xudaverdiyev İsrəfil.

**<u>Bunlar isə Sovet İttifaqı Qəhrəmanlarıdır:</u>**

Həzi Aslanov
Ziya Bunyatov

Bəhiyəddin Mirzəyev
Mehdi Hüseynzadə
Yakov Şaxnoviç
Nəcəfqulu Rəfiyev
Qəzənfər Quliyev
Rixard Zorqe- alman, həmyerlimiz.
Nikolay Kuznesov – rus
Piyotur Maşerov – belorus
Sidor Kovpak – belorus
Kantariya – gürcü, Reystaq güllәsinә bayraq taxan.

**Poemada adı çəkilən döyüşçü soydaşlarımız**
Zuleyxa Seidməmmədova – təyyarəçi.
Əhmədiyyə Cəbrayılov – Fransanın milli qəhrəmanı

Alman bombanı atır
Qoca paytaxt Londona,
**Çerçill** aləmi qatır,
Və girir siyasi dona.

Vilyam **Ruzveltə** deyir,
Dözə bilmir bu dərdə,
Savaş büdcəni yeyir,
Ərzaq qıtdır səhərdə.

Faşist yaman qudurub,
Aman verməyir bizə,
Gəlib qapımda durub,
Odda vurur evimizə.

Amerikan qardaşım,
Kömək etməsən mənə,
Ağrıyacaq göz, başım,
Gümanım qalıb sənə.

Başa  düşür Villini,
Deyir məsafə uzaqdır,
Gəl dinləyək Stalini,
O da  bizə dayaqdır.

Stalin bunları bilir
Anlayır vəziyyəti,
Sonra Çerçilə deyir,
Kim çəkmir ki, əziyyəti?

Bizə silah göndərir
Gəmilə amerikan,
Faşist vurur, çöndərir,
Tükənir hərbi imkan.

Su altı  qayıqların
Hitler tökür şimala,
Vurur yük gəmilərin,
Qoymayır üzdə qala.

Stalin deyir Ruzveltə,
Açın ikinci cəbhəni,
Yoxsa Hitler yıxacaq,
Həm Çercilli, həm məni.

Siz qoşun yeritsəniz
Gücdən düşəcək alman,
Boşalsa Şimal dəniz,
Hitler sarsılar yaman.

Bu ciddi  məsələni
Telefonda  açmıram,
Gəlin quraq  tələni,
Bu təklifdən qaçmıram.

Görüşdülər rəhbərlər
İranın  paytaxtında,
Terrora cəhd edənlər,
Həbs olundu vaxtında.

Görüş keçir səmərəli
Razılığa gəlirlər,
Üç ölkənin rəhbəri,
Sənədə qol çəkirlər.

Tehran – 43  görüşü
Hücumu tezləşdirdi,
ABŞ desant yüyürüşü,
Hitleri əsəbiləşdirdi.

Desant hədəfə çatır,
Salır Adolfu dərdə,
Şərqdən qoşunu atır,
Kömək üçün o qərbə.

Onda  azad olundu
Yağılardan ölkəmiz,
Faşist suda boğuldu,
Qaynadı Qara dəniz.

Belorus partizanı,
Zərbə vurur faşistə,
Qanla yuyur o qanı,
Faşist düşür üzüstə.

Kim unudar **Kovpaki,**
Partizan  komandirin,
Qəhrəman **Maşerovu,**
Hərəkətin  rəhbərin.

Əbəs  yerə ölmədi
**Nikolay Kuznesov,**
Qələbəni o görmədi,
Görsə də Rovno, Pskov.

Stalin də qalır  razı
**Jukovun** əməlindən,
Təmizlənir  ərazi,
Yağı düşmən əlindən.

Qovulur ölkəmizdən
Faşist, quldur alayı,
SS qorxaraq bizdən,
Qaçır qərbə dolayı.

Şəhərlərdən çıxanda
Faşist qurur minanı,
Düyməsini basanda,
Oyanmayır vicdanı.

Alman qaçır elinə
Tərk edir Varşavanı,
Hələ qalıb Berlinə,
Minalayır Praqanı.

Qərbdə yaxşı döyüşür
Amerikan  əsgərləri,
İngilis  də  çalışır,
Məhv etsin düşmənləri.

Şərqdə Sovet ordusu
Tam sıxıb  almanları,
Qərbdə ABŞ korpusu,
Vurur  istehkamları.

Əsgərlər qurur ponton
Coşqun Elba çayında,
Görüşür Con və Anton,
Qələbə ilin mayında.

Qucaqlaşıb, öpüşür
İki ölkənin əsgəri,
Con da ondan soruşur,
Necə gedir işləri?

Aldıq dünən Berlini,
Bayraq taxdı Kantariya,
Yıxdıq faşist reyixini
Qalıb bir İtaliya.

Hitler üç övladını
Zəhərlədi birlikdə,
Sonra da arvadını,
Güllələdi bunkerdə.

Borman qaçdı ölkədən
Reyxin qızılı ilə,
Necə gizləndi sizdən,
Pəzəvəng görkəmi ilə?

Məğlubiyyət aktını
İmzaladı faşistlər,
Tərk edərək taxtını,
Qandallandı nasistlər.

Müttəhim kürsüsündə
Oturdu Gerinq, Hess,
Yayın qızmar günündə,
Başladı mühüm proses.

Hökm oxunur caniyə,
O dərk edir cəzasın,
Yoxdur artıq maniyə.
Asmaq üçün əsasın.

Buda həmin siyahı
Yazıram ki, görəsiniz,
Bu faşistlər, Allahı,
Tam unudub, biləsiniz.

**Nürnberq prosesində ittiham olunmuş faşist cəlladlarının adları:**

Sikelqruber Adolf- **Hitler** – özünə qəsd.
German Hess – asıldı.
German Gerinq – asıldı.
Vilhelim Keytel – güllələndi.
Rudolf Hess – güllələndi.
Hans Hanq – asıldı.
Ştreyxer – asıldı.
Şaxn – güllələndi.
Karl Bens – 10 il müddətinə azadlıqdan məhrum edildi.
Robintrop, Xarici İşlər naziri – asıldı.
Kaltenbrüner – asıldı.
Valter Fon – azadlığa buraxıldı.
Hans Frank – azadlığa buraxıldı.
Valter Vunq – güllələndi.
Zalper – güllələndi.
Albert Şpeyer – 20 il müddətinə azadlıqdan məhrum edildi.

Görüşdülər Potsdamda
Müttəfiq rəhbərləri,
Bu tarixi məqamda,
Gördük biz təbrikləri.

Salamlayıb bir-birin,
Başladılar  iclasa,
Kimə çatacaq Berlin,
Göstərəcək bu masa.

**Trumen** özündən razı,
Çerçellə  pıçıldaşır,
Yaman artıbdır qazı,
Forsu başından aşır.

Səbəbi də bundadır,
Əldə edibdir  nüvə,
Yaratdığı bombadır,
O gündən dönüb divə.

Stalin sakit, səbirlə
Kurçatova zəng edir,
Bu söhbətdə, Sibirlə,
Deyir sülh əldən gedir.

Hazırdırmı oyuncaq?
O soruşur alimdən,
Bəli, ağırdır ancaq,
Ağrı tutub belimdən.

Yəni hazırdır nüvə
Güclü təyyarə gərək.
Dönsə də ağır divə,
Uçmalıdır bu " mələk."

Uğurlu keçdi sınaq,
Sibirin  mərkəzində,
Qaldı bir dərin çanaq,
Nüvədən yer üzündə.

Trumen əmr verdi-
Yapona nüvə atın,
İki şəhəri devirdi,
Qopartdı yerin qatın.

Avqustun yeddisində
Qalxdı göyə təyyarə,
Bir nüvə gövdəsində,
**Qurvi** etdi idarə.

Pilot dəqiq bilirdi,
Yapon atəş açacaq,
Gün tərəfdən girirdi,
Hücum olsa qaçacaq.

Xirosima titrədi
Bu nüvənin gücündən,
İnsanlar heç bilmədi,
Nədən gedib özündən.

Qalxdı göyə boz bulud
Bir göbələk şəkilində,
Yarandı cansız sükut,
Bu yapon şəhərində.

Zərbə dalğası dəydi,
Bütün bina, evlərə,
Radio qülləsin əydi,
Qopdu qapı, pəncərə.

Aldı rentgen şüasın
Şəhərdə sağ qalanlar,
Dərin suluq yarasın,
Görmür nüvə atanlar.

Üç gün sonra nüvəni
O atdı Naqasakiya,
Yaydı zəhər, civəni,
Səbəb oldu hay-küyə.

Uçdu  evlər, binalar,
Dalğa qalxdı dənizdən,
Külə döndü insanlar,
Toz-torpaq oldu dizdən.

Qisas aldı amerikan,
Səs yayıldı  bəşərə,
Dağıldı şərqdə məkan,
Baxın cansız şəhərə.

ABŞ qələbə çaldı,
Yaponlar üzərində,
Sovet də Berlini aldı,
Saxladı nəzərində.

Bu ölkə parçalandı
Yarandı iki dövlət
Biri ADR adlandı,
O biri  AFR əlbət.

Vurdu bütün əziyyəti
Yerə Mixayıl nadan,
Satdı qərbə dövləti,
Sonra çıxdı aradan.

## EPİLOQ

Xalqım benzin verirdi,
Cəbhəyə silah, çörək,
Özü göyərti yeyirdi,
Yada çöldə göbələk.

Bizim benzinlə qalxdı,
Göy üzünə şahinlər,
Hətta Berlinə çatdı,
Bombalandı faşistlər.

O gətirdi hərəkətə,
Keçdi hücuma tanklar,
Bizdə olan sərvətə,
Göz tikmişdi almanlar.

Keşlənin  zavodları
İşlədi gecə, gündüz
Çalışqan qadınları,
Gördü millət yuxusuz.

Dayanmadı dəzgahlar,
Verdi  silah, mərmini,
Ərsiz qalan qadınlar,
Danışmırdı dərdini.

Onlar vurdu  faşisti
Arxa cəbhə önündə,
Göndərdi əlcək dəsti,
Qışın soyuq günündə.

Vurmasın şaxta, boran,
Zabit,  əsgər  əlini,
Düşməni qışda vuran,
Yazda gələr gəlini.

Aldı qəhrəman adın
Zəbt olunmuş şəhərlər,
Bildi  işğalın  dadın,
Kiyev, Minsk, digərlər.

Oldu qəhrəman şəhər
İşğal olunmuş Tula,
Vuruşdu axşam, səhər,
**Bakı** dönmədi qula.

Haqq, ədalət olsaydı,
Stalin verərdi fərman,
Faşist Bakıya girsəydi,
Bakı olardı qəhrəman?

Bəlkə hələ gec deyil,
İnsafa gələr ruslar,
Bakıya göstərib meyl,
**Qəhrəman** desin onlar.

## QARABAĞ

Yenə də zəbt edilib
Faşistlə torpağımız,
Alman deyil, o gedib,
Erməni işğalçımız.

İşğal olan Qarabağ,
Dahilər yetişdirib,
Zəbt edilən bu torpaq,
Gör kimləri itirib.

Qarabağ torpaq dərdi
Çətin çıxar yadımdan,
Vuruşuruq biz fərdi,
Kimsə, kimin adından.

Ordu təşkil olmadı,
Taborlar pərakəndə,
Bizi ruslar qoymadı,
Erməni girən kəndə.

Saqqalı da qudurdu,
Rusun himayəsində,
Salatını o vurdu,
Rusların zabitində.

Məndə getdim savaşa,
Üç uşağın atası,
Atdılar gözə, başa,
Aldım güllə yarası.

Ağdam, Daşaltı, Şuşa
Erkec və Manaşid,
Döyüşür Riyad, Musa,
Sursat gətirir Rəşid.

Qəfil snayper gülləsi
Tuş gəldi **Bahadıra,**
Gəlsə də güllə səsi,
İnanmadım ki, vura.

Güllə dəyib ayağa
Toxunmayıb sümüyə,
Oda atdı yağıya,
Çəkilmədi geriyə.

İgidi bu zülmdən,
Zabit Malik qurtardı,
Xilas edir ölümdən,
Sakit yerə apardı.

Sonra o yaralını,
Çatdırdı hospitala,
Sildi tərli  alnını,
Ruh verdi qartala,

Sağal, qayıt sıraya,
Silahı vermə əlindən,
Dəstə dönər alaya,
Sən qayıtsan yenidən.

Daşaltı  əməliyyatı,
Sonuncu savaş yeri,
Orda görüb **Riyadı**
Savaşda qalan diri.

Ananın gözü yolda
Sıxıb onu qəm, kədər,
Şəkili sağda, solda,
Dözür hələ bir qədər.

Dedilər Riyad sağdır,
Amma düşüb tələyə,
Uca boylu bir dağdır,
Dözəcək hər kələyə.

Çox qalmaz o tələdə,
Bizə bəllidir bu ad,
Umud vardır hələ də,
Qayıdacaq evə Riyad.

Tanıyırdım zabiti
Görüşürdük xidmətdə,
Özü mərd, sözü iti,
Qazanmışdı hörmətdə.

Oldu Milli Qəhrəman,
Gəmi vardır  adına,
Ürəkdən gələn fərman,
Bir gün çatar dadına.

Ağdam işğal altında
Əzab çəkirdi **Nadir,**
Çünki “Sona bül-bülü”
Orda oxumur Qədir.

Ona xəbər çatır ki,
Silahdaşı  dardadır,
Bütün işin  atdı ki,
Deyir bəlkə qar dadır.

Nadir minir maşına
Sürür Ağdam tərəfə,
Nələr gəlir  başına,
O dönəndə hədəfə.

Gör nəyin bahasına
Xilas edir dostunu,
Sıx atəş  sədasına,
Keçir düşmən postunu.

Nə baş verib, bilməyir,
Dözür ağrıya canı,
Yoldan çıxıb dönməyir,
Axsa da yerə qanı.

Nadir rolu saxlayır,
Amma huşun itirir,
Dost yaranı bağlayır,
Çaydan da su gətirir.

Lakin ürək dayanır,
Nəbzi hiss edilməyir,
Nadir qana boyanır,
Bunu özü bilməyir.

Əbəs yerə tökməyib,
Riyad, Nadir qanını,
Yağıya diz çökməyib,
Fəda edib canını.

Hər iki qəhrəmanla,
Fəxr edir yaşlı, cavan,
Onlar deyib inamla,
Yaşasın Azərbaycan.

Şəhidlərə min rəhmət
Gəlin deyək Allahdan,
Onlara edək hörmət,
Bilsin bizi yaradan.

Gərək birlikdə qalxaq
Kömək edək qoşuna,
İşğalçını  çıxardaq,
Yumruq vuraq başına.

Necə o vaxt atıldı
Qərbə faşist sürüsü,
Qanı toza qatıldı,
Qaldı milyon ölüsü.

Kim deyir ki, uduzduq
Qarabağda  savaşı,
Erməni qudurtduq,
Ağartmadıq göz, qaşı.

İndi gərək ağardaq,
İşğalçıya göz, qaşı,
Hətta silah çıxardaq,
Vuraq  başına daşı.

Qarabağı yağıdan
Gərək biz azad edək,
Səhər durub yuxudan,
Əsgər paltarın geyək.

Güclü ordu yaradıb
Dahi ulu öndərimiz,
Yağı günün qaraldıb,
Azad olub Horadiz.

Atadan miras qalıb,
Güclü ordu və silah,
İlhamda  silah alıb,
Qorusun onu Allah.

Yaxşılıqla qaytarsın
Erməni torpaqları,
Sülh yolunu axtarsın,
Yanmasın ev, bağları.

Onsuzda sülh aktına,
Erməni qol çəkəcək,
Yoxsa çıxar axırına,
Tale yüklü gələcək.

**Azərbaycanın Milli qəhrəmanları, Qarabağın azadlığı və Azərbaycanın müstəqilliyi uğrunda şəhid olmuş MTN sabiq əməkdaşları:**

1. **Əhmədov Riyad**.
2. **Əliyev Nadir**.

**3. Məmmədov Eldar.**
**4. Mansurov Bəhruz.**
**5. Əliyev Əmiraslan.**
**6. Cəfərov Faiq.**

**Qarabağ müharibə veteranları:**

Əliyev Asif.
Əliyev Əziz.
Əliyev Zakir.
Əsgərov Abbas.
Babayev Etibar
Kərimov Aydın.
Məmmədov Qadir
Mustafayev Malik
İsmayılov Hamlet - 6 iyul 1991-ci ildə yaralanıb.
Həsənov Bahadur- 6 iyul 1991-ci ildə yaralanıb
Haciyev Tariyel.
Cəfərov Mühüddin
Şabakayev Rais- yaralanıb.

# MARAFON

Bir neçə il bundan əvvəl ABŞ-da keçirilən prezident seçkiləri və dünyada cərəyan edən siyasi hadisələr məndə xüsusi maraq oyatdığı üçün, mən "Marafon" adlı poemanı yazmağa qərara gəldim. Bu seçkilərdə Amerika Prezidenti Corc Buş və prezidentliyə namizəd ermənipərəst Con Kerri yarışırlar. Belə ranqlı seçkilər keçirilərkən, erməni icması əlverişli məqam seçib, namizədlərə dəstək verərək, çalışırlar onları öz problemlərinə cəlb etsinlər. Ermənilərin isə problemləri qurtarmaq bilmir. Odur ki, onlar Qarabağ və uydurma erməni soyqırımı məsələlərini gündəmə gətirərək, gələcəyin prezidentlərindən əminlik almaq üçün, onların bəzilərini dəstəkləyərək, hətta maddi köməklikdə təklif edirlər. Bu hadisələrin önündə mən NATO qoşunlarının İraqa yeridilməsi və Səddəm Hüseynin edamını barədə, dünya miqyaslı terrorçu, Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş agenti Usamə Bin Ladenin ABŞ-da, Avropa ölkələrində, İraqda, Əfqanıstanda və Pakistanda törətdiyi amansız terror aktlarını da poemada əks etmişəm. Qeyd etmək istəyirəm ki, Rusiya mətbuatının verdiyi xəbərə gora, bir zaman ata Corc Buş Mərkəzi Kəşfiyyat idarəsində yüksək vəzifədə çalışarkən, o Usama Bin Ladeni agent timsalında təxribat işlərinə cəlb edərək, onu Əfqanıstana, Sovet ordusuna qarşı vuruşmağa göndərmişdir. O guya Bin Ladenin qardaşının pulunun hesabına neft şirkətini də açmağa müvəffəq olmuşdur. Lakin onların araları dəydiyi üçün, Bin Laden də mərkəzi kəşfiyyat idarəsi ilə əməkdaşlıqdan imtina edir və Nyu-Yorkda, Vaşinqtonda, Londonda, İraqda, Əfqanistanda və Pakistanda silsiləli partlayışlar törədir. Böyük Britaniyanın Nazirlər kabinetinin sabiq sədri Con Meycer bu ölkələrdə törədilmiş terrorlardan sonra oğul Buşa təklif edir ki, Pentaqon İraqdan və Əfqanıstandan qoşunları təcili çıxartsın. O deyir ki, bu ölkələrdə ingilis əsgərləri də böyük itkilər verdiyi üçün, senat ondan hesabat istəyir. Törədilmiş terror aktlarından sonra

Amerikanın yüksək dairələri Bin Ladeni özünə bir nömrəli düşmən elan edərək, onun axtarışına başlayır. Bu günlərdə, yəni biri may 2011-ci ildə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin xüsusi dəstəsi Pakistanın ərazisində keçirdiyi axtarış-əməliyyat tədbirləri nəticəsində Bin Ladeni məhv etmişdir. Bu barədə ABŞ Prezidenti Barak Obama da rəsmi bəyanat vermişdir. Lakin bundan sonra da terror aktları səngiməyir. Cari ilin may ayının ortalarında Bin Ladenin tərəfdaşları Pakistanda iki terror aktı törədir və bunun nəticəsində 72 nəfər həlak olur, yüzlərlə insan yaralanır. Con Meycerin sülh təklifi birdə onu göstərir ki, mənasız müharibələr hər zaman insanı, maddi və mənəvi itkilərlə yekunlaşıb. Bunları gərək bizim də mənfur qonşularımız nəzərə alsın və işğal etdikləri Azərbaycan torpaqlarından şərtsiz çıxsınlar.

Start götürür seçkilər,
Dolub, daşır içkilər,
Kim yarışda geridir?
Buşdan sonra Kerridir.

Bu seçkidə, yarışda,
Con Kerri hər qarışda,
Maniyə ilə rastlaşır,
Təqiblər həddin aşır.

Çünki Corcun atası,
Demokratlar baltası,
Dərs verir oğul Buşa,
Necə girsin yarışa.

Ata deyir oğluna,
Vur arvadı qoluna,
Gəz dağları, aranı,
Dinlə ağı, qaranı.

Yoxsa Kerri qabaqlar,
Səndən tez dağı adlar,
Geciksən hər görüşə,
Düşərsən dilə, dişə.

Xalqın inamın qazan,
Şair olmaz hər yazan,
Nitqin olsa  avara,
Dediyin gəlməz kara.

Millət səndən danışır
Hətta küsən barışır,
Hələ ki, hörmətin var,
Hövsələni etmə dar.

Eşit, qulaq as xalqa,
Səngiməsin bu dalğa,
Danış, çalış, inandır,
Xalqı nitqinlə yandır.

Pislə, şərlə Kerrini,
Bilsin gəda yerini,
Kəs danışan dilini,
Çəksin taxtdan əlini.

Ver çörəyi, ver koksu,
Millətə öyrət boksu,
Vursun Cona zərbəni,
Hiss eyləsin erməni.

Deyirəm, bunu da bil,
Rəqibin çevik, mobil,
Əl atacaq qələmə,
Car çəkəcək aləmə.

Guya bizim sahibkar,
Qalıbdır tamam bekar,
Dollar qiymətdən düşür,
Əldən çıxır, sürüşür.

Ona fikir vermə sən,
Bu ki, böhtandır desən,
Millət sənə inanar,
Sözün oduna yanar.

Ata girir qoluna,
Kəlam deyir oğluna -
İçdiyimiz şərabdır,
Düşmənimiz ərəbdir.

Seçki olsun bərqərar,
Hazırla ciddi qərar,
Davam eylə savaşı,
Səddəmə, Binə qarşı.

Vermə əldən saqqalı
Axtar, tap o çaqqalı,
Vəlvələ sal canına,
Kəltən eylə qanına.

Yox ata belə olmaz,
Bin niyə oldu qanmaz,
Sən ki, onu sevirdin,
Ona səcdə edirdin.

İndi baxıram sənə,
Qeybət qırırsan yenə,
Sərt danışırsan ondan,
Torba tikirsən dondan.

Bilirsən mənim balam,
Savaşı sən et davam,
Pulu  burax orduya,
Qoyma tankı doğraya.

Ordu bekar qalanda,
Tankı boksa salanda,
Paslanar raket, maşın,
Ağrıyar sağlam başın.

Bunları bil,  agah ol,
Əgər güclüdürsə qol,
Hamı hörmət edəcək,
İşin də gur gedəcək.

Ata da vaxtında çox,
Ərəblərə atıb ox,
Olub kinli davakar,
İndi qalıbdır bekar.

O vaxt Corcun atası,
Saldı Küveyt davası,
Tökdü patron, gilizi,
Yığdı  nefti,  filizi.

Qayıdaq seçkilərə,
Həmən gözəl günlərə,
Hərə bir buket alır,
Corc Buşu yada salır.

Corcun boğazı təmiz,
Nitqi açıq, bir dəniz,
Deyir, vədələr verir,
Görünür xalqın sevir.

Millət qalxır ayağa,
Dəstək verir dayağa,
Tərifləyirlər Corcu ,
Xalqa olsa da borcu.

Kerri də minir ata,
Gedir o doğma ştata,
Amma düşür yağışa,
Yayı dönür sərt qışa.

Əlacsız qalan Kerri,
Yoldan qayıdır geri,
Sonra alır viski, tort,
Çünki gələcək Arnold.

Kerri zəng edir ona,
Deyir gəl Vaşinqtona,
Qanın niyə qaradır?
Qəlbim inan yaradır.

Gəl ofisdə görüşək,
Oturaq bir dərdləşək.
Tükənib məndə səbir,
Buşa qazırsan qəbir?

Qaza bilsəydim qəbir
Olardım pələng, bəbir,
Corcun seçki ordusu,
Yıxıb məni doğrusu.

Birdə ki, mənim atam,
Qoymur gecəni yatam,
Səhər erkən oyanır,
Başım üstə dayanır.

Deyir oğul dur qaçaq,
İdmançı olar  qoçaq,
Buş də səhərlər qaçır,
Bağlı qapılar açır.

Dostu maşından düşür,
Con Kerri ilə görüşür,
Sonra göyçək İzolda,
Qəhvə süzür Arnolda.

Bu terminator  Arnold,
Kerriya verir bir "Kolt",
Deyir məndən hədiyyə,
Mesaj göndər gədəyə.

De ki, ay davakar Corc,
Konqresdən aldın borc,
Saldın İraq savaşın,
Ağrıtdın xalqın başın.

Qəzet yazır bu haqda,
Ölür əsgər İraqda,
Gəlir bağlı qutular,
Dolub morqda* otaqlar.

Çünki sənsən günahkar,
Hərbi əməlin bekar,
Qırılır əsgər,  zabit,
Odlanır Bağdad, Tiqrit

De, olsaydım rəhbər,
Ölməzdi zabit, əsgər.
Sonra soruş  nüvəni,
Tapdı orda civəni?

---

* Morq – ölüxana

Buşdan hədə qorxular,
Haram olan yuxular,
Sarsıtmasın qoy səni,
Tərk eyləmə ölkəni.

Bizimlə həmrəy olsan,
Sözünə sadiq qalsan,
Əl tutarıq  seçkidə,
Budur  bizim əqidə.

Kerri deyir çox sağ ol,
Məsləhətli yaxşı yol,
Gərginliyi səngidər,
Buşun işin ləngidər.

Qaldı ki, o seçkilərə,
Kömək etməsə hərə,
Çətin Buşu aşırdam,
O Ağ Evdən qaçırdam.

Şvarsneyger deyir ona,
Girməlisən min dona,
Qurtarıb bizdə barıt,
Çalış seçkidə yarıt.

Erməni versə dəstək,
Pul buraxsa bir ətək,
Sən də lider olarsan,
Ön cərgədə qalarsan.

Bu erməni icması,
Qanmır yoxu, iflası,
Gəlir, döyür qapımı,
Deyir dollar tapımmı.

İstəyir olum başqan,
Tapdalansın müsəlman,
Rəsmiləşsin Qarabağ,
Türkü saysın maymaq.

Söhbətə çatır Vartan,
Seçkilərdə püşk atan,
Təmənnalı dost seçən,
Dostluğu basıb keçən.

Vartan deyir Arnolda,
Kerri bu siyasi rolda,
Yaman zəif görünür,
Tısbağa tək sürünür.

O da deyir, ay Vartan,
Seçkidə gündüz yatan,
Lazımı səs toplamaz,
Siyasətdə iz qoymaz.

İcmanız pul verməsə,
Conu lider etməsə,
O yarışdan çıxacaq
Buş da onu yıxacaq.

Vartan üz tutur Cona
Viskidən süzür ona
Deyir kömək olacaq,
Buş taxtsız qalacaq.

Con toplayır fikrini,
Sonra içir viskini,
Deyir içməyə dəyər,
İçməsəm Vartan söyər.

Vartan deyir Kerriyə,
Bizim bu imperiya,
Sənsiz inan çökəcək,
Buş icmanı sökəcək.

Qoy seçkilər qurtarsın,
Səs toplumu yaransın,
Rəsmiləşsin sənədlər,
Çin olacaq bu vədlər.

Erməni pul buraxır,
Kerri də pula baxır,
Deyir-gözəl millətdir,
Sanki pullu dövlətdir.

Lakin, yenə seçicilər,
Buşu rəhbər seçdilər,
Səs topladı Kerri də,
Amma qaldı geridə.

Oklaxoma, Miçiqan,
Orda tökülən tər, qan,
Birdə Buşu ucaltdı,
Kerrini isə qocaltdı.

Kanzasda da seçicilər,
Kerridən yan keçdilər,
Səs verdilər Corc Buşa,
Oda  bənzədi quşa.

Qanadlandı uçmağa,
Binə irad tutmağa,
Guya, salacaq tora,
Son qoyacaq terrora.

Buşa səslər verdilər,
Tərif sözün dedilər,
O da öpdü bayrağı,
Yada saldı İraqı.

İraqda var neft, mazut
Səddəm quyular qazıb.
Əsas sərvəti neftdir
Daşınsa, milli kefdir.

Əmr verir kiçik Buş,
Atəş aç, əsgər vuruş,
Dağıt saray, məscidi,
Partlat çaydan keçidi.

Tökün milləti suya,
Odur terrorist guya,
Bağlayın tez yolları,
Daşıyın qızılı, dolları.

Atam da düşdü yada
Hücum edin Bağdada,
Səddəm ilə savaşda,
Məğlub olub o yaşda.

Girin əsas saraya,
Qatın ağı, qaraya,
Sökün həyət, bacanı,
Vurun evdən qaçanı.

Səddəm ayaq saxlayır,
Belə silah bağlayır,
Sonra çıxır aradan,
Möhlət verir yaradan.

Gecə gəzir Mosulu
Görür kasıb, yoxsulu
Başa düşür vəziyyəti,
Verib xalqa əziyyəti.

Sonra qaçır Livana,
Yıxır özünü divana,
Yeyir qozu, xurmanı,
İçir qorxu dərmanı.

Axşam minir qatara,
Gedib çıxır Katara,
Katar  isti ölkədir,
Bağı sərin, kölgədir.

Məlumat var efirdə,
Dünən olub Misirdə,
Amma gəlsə vətənə,
Bürünəcək kəfənə.

Qurdular tələ, torlar,
Ona ən yaxın dostlar,
Satdılar  kəşfiyyata,
Son qoydular həyata.

Sevsəydi öz xalqını,
Qoruyardı alnını,
Hökmdar qəddarlığı,
Əks etməyir varlığı.

Gördün ali hökmdar,
İnsan olanda qəddar,
Dosta da üz çöndərir,
Rəqibə gül göndərir.

Gecə hökm oxundu
Səddəm edam olundu,
Qalsaydı qürbətdə,
Sağ qalardı əlbəttə.

Dekabrın son anı,
Gecə edam zamanı,
Gizli çəkiliş oldu,
Məxfi edam pozuldu.

Bu şərəfsiz ölümü,
Zindandakı zülmü,
Gördü millət ekranda,
Bakıda və Tehranda.

Sonra hökm yazdılar,
Qardaşın da asdılar,
Qaldı bir gün havada,
Bu qaydasız davada.

Unutmayın Səddəmi
Xalq istəyir həmdəmi,
Təcridi seçən rəhbər,
Tez-tez alır bəd xəbər.

Buşdan gələn əmrlər,
Atəş açan gəmilər,
Dağıtdı kənd, şəhəri,
Millət qalxdı səhəri.

Ərəblər hücum edir,
Pentaqonun tankına,
Əsgər özündən gedir,
Düşür tankın altına.

Onlara dəstək verir,
Bin Laden savaşda,
Ölün kafurlar, deyir,
Adınız qalsın daşda.

Bin gəmilər yandırır,
Körfəzdə və dənizdə,
Amerikaya qandırır,
Görün bunları sizdə.

Partlayır neft kəməri,
Mazut axır göllərə,
Ərəbin də hünəri,
Düşür yenə dillərə.

İstəmir qismət olsun,
Bu sərvət yağılara,
İstəyir çənlər dolsun,
Xidmət etsin onlara.

Çox çalışır Pentaqon,
Vursun öz agentini,
Qıymayır ona patron,
Çünki aşıb həddini.

Bərkidir öz yerini,
Bin Laden Mosulda,
Soyur ətdən dərini,
Qaçır səfir, konsulda.

Girov düşür italyan,
Beş filippin və fransız,
Bunu dedi sağ qalan,
Onlar öldü amansız.

Ərəb çalma başında,
Güclü bomba maşında,
Sürür, çırpır binaya,
Sanki partlayır qaya.

Sağlamlığın  itirir,
Pentaqon əsgərləri,
Mərdi qətlə yetirir,
Dost sayır namərdləri.

Vuruşur sünni, şiə,
Yağı bezir savaşdan,
Kim dözər ağrı, qıya,
Bədən ayrılsa başdan.

Terrorlar davam edir,
Dağılır məscid, bazar,
Bəs kim ölümə gedir?
Yağıdan qalan bezar.

Terrorla etdi diktə,
Bin sentyabr ayında,
Bu barədə üç nöqtə,
Oxu şerin sayında.

ABŞ -dakı terrorlar,
Corc Buşu məyus edir,
Olsa da sübut, faktlar,
Qatil ABŞ-dan gedir.

Bin cəzasın alacaq,
Buş söz verib seçkidə,
Cəhənnəmdə yanacaq,
Təkrar edir o birdə.

Həyat tarix yoludur,
Qəribəliklə doludur,
İki insan dost olur,
Sonra dostla vurulur.

Buş-Bin ünsiyyəti,
Yaranıbdır ABŞ-da,
Onun puştu heyəti,
Gizlənir dağda, daşda.

Gecə Sovet ordusu,
Girir qədim Kabilə,
Göndəriblər bu rusu,
Amini tutsun dilə.

Lakin saray hakimi,
Atəş açır, vuruşur,
O da Səddəm kimi,
Əbədiyyətə qovuşur.

Onlar vurur Amini,
Bütün nəslini kəsir,
Bəbrək sürür gəmini,
Külək əksinə əsir.

Bəbrəkə qarşı qalxır,
Orda puştu, taliblər,
Qan, su yerinə axır,
Lakin yoxdur qaliblər.

Buş Ladeni göndərir,
Puştunun köməyinə,
Vurur, tankı çöndərir,
Qiymət verir əməyinə.

Mühüm işlər tapşırır,
Pentaqon bu Ladenə,
Bin də səylə çalışır,
Əfqan çıxsın ağ günə.

Buşla bağlanan saziş
Binə gəlir gətirir,
Budur hərbi nəvaziş,
Yalnız ölən itirir.

Kəşfiyyatçı deyir Bin,
Əgər boşdursa cibin,
Gərək raket atasan,
Rusu qana qatasan.

Bin çəkilir dağlara,
Baxır gur bulaqlara,
Qurur orda tələni,
Salır tora, gələni.

Bin tutur əsirləri,
Öyrənir hər sirləri,
Danışmayan zabiti,
Parçalayır bəd iti.

Amansız rəftar edir,
Əsgərlərlə bu muzdur,
Döyür, vurur, incidir,
Əsir düşən uduzur.

Bin deyir puştuna,
Artırın  sayıqlığı,
Rus girsə postuna,
Tam kəsərəm aylığı.

Bu kəşfiyyat agenti,
Alır hərbi patenti,
Qoşulur  puştulara,
Qan uddurur ruslara.

Savaşdan gəlir artır,
Kasıblıq daşın atır,
Keçir ciddi alverə,
Toxum səpir hər yerə.

Olsa da müdrik yaşı,
Bin toplayır xaşxaşı,
Satır yaxşı qiymətə,
Ziyan vurur millətə.

Xəbər çatır yuxarı,
Bin dağıdır pulları,
Girib şeytan donuna,
Silah vermir puştuna.

Bini tənbeh etdilər,
Hətta orda güddülər,
Oda dedi rəhbərə,
Silah alıb bir bərə.

On "stinqer" almışam,
Üç təyyarə salmışam,
Beş yeşikdə qumbara,
Payladım  puştulara.

Puştular tələ qurub,
Bir tabor rusu vurub,
Hər birisi min dollar,
Bu siyahı, bu qollar.

Silahımız var hələ,
Qururam rusa tələ,
Hər düşən tələyə,
Dönür orda mələyə.

Bu Bin bir az savaşır,
Sonra cəbhədən qaçır,
Deyir bəsti, pulum var,
Açıram qərbdə bazar.

Bin torpaqlar alır,
Gözəl villalar salır,
Verir onu icarə,
Alır "Boyinq" təyyarə.

Bin uçur eldən, elə,
Tumar vurur ağ telə,
Bu gün Paris bərbəri,
Sabah alman dilbəri.

Yolu düşür Əfqana,
Odu vurur qəlyana,
Düzür manqala şişi
Yada salır qəşişi.

Əfqanda var heroin,
Həm qəşiş və kokain,
Becərib satsam onu,
Milyon dollardır tonu.

Bin də əkir xaşxaşı,
Artır pulu, daş-başı,
Toplayır çoxlu qəşiş,
Yaradır topdan satış.

Sən demə bu heroin,
Soltanıdır  sarayın,
İynə vurur qız, oğlan,
Hətta təzə doğulan.

Budur Binin bazarı,
Tutmaz iflas azarı,
Pulu toplanır bankda,
Çatar almağa tank da.

Bin qəşişdən varlanır,
Buda biznes adlanır,
Pul buraxır Xəttəbə,
Terroru salsın dəbə.

Verir pulun, silahın,
Qoçaq yusun günahın,
O da az qalmış yaza,
Gedir çıxır Qafqaza.

Orda qalxır dağlara,
Girir meşə, bağlara,
Təlim keçir çeçenə,
Baxır onun gücünə.

Laden satır ABŞ-a
Narkotikdən tanışa
İynə vuran narkoman
Olur milli “qəhrəman”.

Sataşır hər keçənə,
Hətta suyu içənə,
Səbəb axtarır qoçaq
Düşmür əlindən buçaq.

Hər qoşulan bu işə,
Gücün verir söyüşə,
Çıxır ağlı başından,
Utanmayır yaşından.

Əfqandan gələn qəşiş,
Pozulan hərbi saziş
Qəzəbləndirir Buşu,
Az qalır itsin huşu.

Corc deyir bu dərviş
Aləmə satır qəşiş,
Millət olub narkoman,
Çəkir hətta ot, saman.

Buş tapşırır orduya,
Bomba atsın Toraya
Bin də hirslənib deyir,
Sənlə qalsın sonraya.

Təhqiri Bin sevməyir,
Terror edəcəm deyir,
Mesaj göndərir Buşa-
Od vuracam ABŞ-a.

Sizi nişan almışam,
Və tələyə salmışam,
Dağılacaq Pentaqon,
Aşacaq gəmi, vaqon.

Sözünə edir əməl,
Terrora qoyur təməl,
Əvvəl partlayır motel,
Sonra beş ulduz otel.

Qisasın gəlir dəmi,
Partlayır hərbi gəmi,
Alovlanır gövdəsi,
Bu da Binin öhdəsi.

Olsaydı Bində abır,
O on biri sentyabr,
Uçmazdı cüt binalar,
Qırılmazdı insanlar.

Buludu yara-yara,
Təyyarə çatır ora,
Bin tapşırır pilota,
Hazır olsun cihada.

Pilot yeyir bananı,
Seçir hündür binanı,
Qışqırır Allahı Əkbər,
Sanki partlayır təkər.

Hər binaya bir zərbə,
Sədası çatdı qərbə,
Uçdu ikisi bir anda,
Dəhşət oldu yananda.

Məhv olundu ticarət,
Göydələndən ibarət,
Qalxdı küləksiz tufan.
Zirzəmiyə doldu qan.

Sağ qalanı sevindi
Yaralanan deyindi -
Bunun sonu olacaq,
Yoxsa belə qalacaq?

Geyir matəm libasın,
Amerika qurur yasın,
Buş söz verir millətə,
Bin gələcək lənətə.

Yas bitir Nyu-yorkda,
Zədə alan kurortda,
Pentaqon öz iclasını,
Başlayır düz günorta.

Gündəlik də belədir,
Əl-Qaydaya tələdir,
Hami axtarsın Bini,
Hər küçəni, hər tini.

Güclənsə də nəzarət,
Kəşfiyyatdan ibarət,
Laden öz  kefindədir,
Parisdə, Berlindədir.

Buş deyir bu şeytan,
Amerikana daş atan,
Yeni planlar qurur,
Hətta Londonu vurur.

Yem verərək  itinə
Buş zəng edir Putinə,
Söhbət açır o Bindən,
Onun pullu cibindən.

Gəl bankın yoxlayaq,
Pul hesabın bağlayaq,
Tutulsa onun pulu,
Olacaq pulun qulu.

Əldə edilən pula,
Alaq bir neçə tula,
Buraxaq meşə, dağa,
Bin keçsin qırmağa.

Putin də cavab verir,
Dediyində var xeyir,
Amma qoy fikirləşim,
Qroznı ilə zəngləşim.

Binin bankları çoxdur,
Pulun hesabı yoxdur,
Deyirlər o Qafqazda,
Filial açır yazda.

Laden gəlsə Qafqaza,
Baş verəcək min qəza,
Bin qoşulsa çeçenə,
Şamil çətin keçinə.

Vəziyyət belə getsə,
Şamilə silah versə,
Terror artar sayda,
Pozular qanun, qayda.

Corc, sizin kəşfiyyat,
Niyə vermir məlumat?
Çox şeyi bilir atan,
Ağ günə, qara qatan.

Bin Əfqana gedəndə,
Bizə terror edəndə,
Sevinirdi Corc atan,
Barmağı "bala" batan,

Məhz o idi pul verən,
Guya uzağı görən.
Bin də aldı dolları,
Kəsdi bütün yolları.

Corc da deyir ay Vova,
Biz mərdi qova-qova,
Döndərmişik namərdə,
Bin dözərmi bu dərdə.

Məsləhətləş atanla,
Fil qulağında yatanla,
Ev ünvanı  var onda,
O görüb Bini sonda.

Bin görünür ekranda,
Hər otellər yananda,
Bezdirib bizi terror,
Bunu edir gorbagor.

Pulu ver kəşfiyyata,
Qoyma gecələr yata,
Bağlasın dağ yolların,
Tutsun Binin malların.

Razılaş bu tədbirlə,
Atan Buşu da dinlə
Bin ondan silah alıb,
Tora da lövbər salıb.

Tapam gərək bu Bini,
Tərs şeytanı, bu cini,
Sığınmasa qürbətə,
Bəlkə gələr söhbətə.

Onu yola gətirsəm,
Çəkişməni bitirsəm,
Terrora son qoyular,
Qan da su ilə yuyular.

Barışıq elan etsəm,
Əl verib, əyləş desəm,
Bin gələr razılığa,
Dönər susuz balığa.

Çünki o da yorulub,
Torada çox vurulub.
Əgər o yensə dağdan,
Öpərəm onu dodaqdan.

Hərif sayırsan onu,
Bin anlayır oyunu,
Gəlsə də o görüşə,
Hazırlaşın döyüşə.

Bilirəm, Bin bəladır,
Əl-Qaydanı  yaradır,
Edir terror və cihad,
Bizi  qoymayır rahat.

Bin giribdir Toraya,
Dəstə yığıb  oraya,
Onu silahlandırıb,
Hərbi elmi qandırıb.

Bu müasir mağara,
Bizi gətirib zara,
Can atırıq partladaq,
Dağ zirvəsin laxladaq.

Bin də ki, bicin biri,
Çox çevik, əldən diri,
Gəlsə də dağdan səsi,
Qoymaz ora bir kəsi.

Tələs, göndər ordunu,
Öldürsün öz qurdunu
Dağıtsın o kahanı,
Qurtar Bindən yaxanı.

Alay qalxır yamaca,
Cavan əsgər vay aca,
Açır, tökür torbanı,
İçir qorxu dərmanı.

Əsgər vurur araqdan,
Ağrı tutur dalaqdan,
Səs-küy qopur orada,
Millət qalxır Torada.

Hər oyanan yuxudan
Atəş açır qorxudan,
Görən sərxoş əsgəri,
Dağda qazır səngəri.

İçməyən qalxır dağa
Hey baxır sola, sağa,
Səslər gəlir kahadan
Amma qorxur qaradan.

Dağda sayıq binçilər,
Görəndə ki, elçilər,
Kahaya yaxınlaşır,
Daş, qayaya dırmaşır.

Onlarda  atəş açır,
Ətrafa işıq saçır,
Qalır yerdə ölənlər
Binə hücum edənlər.

Qurulsa da min tələ
Bu Bin keçməyir ələ,
Hətta onun dəstəsi,
Dağdan düşür ertəsi.

Talib dərs alır Bindən,
Silaha sarılan gündən,
Puştu da at  oynadır
Rusca deyir - vaynadır.

Bir zaman ötür, keçir
Bin Kadorda yer seçir
Yenə deyir Xəttəbə,
Terroru salsın dəbə.

Yatmasın bir gecəni,
Yığsın sağlam çeçeni,
Təlim keçsin onlara,
Mina qoysun yollara.
.
Kador uzun dərədir,
Federala tələdir,
Girsə dərəyə ruslar,
Hər tərəfdən vurular.

Məlumatı rus tutur,
Deyir yenə bu qotur,
Kadora hazırlaşır
İşimiz başdan aşır.

Əfqanda da bu dəyyus,
Bizi etmişdir məyus,
Dağda saldı davanı,
Vurdu tankı, karvanı.

Açılsa Kador yolu,
Şamilə versə pulu,
O qoşulsa Şalmana,
Salman dönər almana.

Poqonlu hərbi nazir
Yeni bir əmr yazır
Sonra deyir kiməsə,
Zəng eyləsin Tiflisə.

Qərargahın rəisi,
Tez dinləyir Tiflisi,
Və nazirə qandırır,
Bin İraqı yandırır.

Deyir ki, bu əjdaha,
Qafqaza gəlməz daha
Çünki Bin İraqda,
Başı qarışıb terrakta.

Binə aid məlumat,
Oldu yalan, təxribat,
Rusları çaş-baş saldı,
Gücün və vaxtın aldı.

Bunlar təhlil olundu,
Hərbi plan quruldu,
Amma keçək ABŞ-a,
Sözü verək Corc Buşa.

O zəng edir Meycerə,
Salam deyir Tetçerə
Söhbət açır İraqdan,
Neftə olan maraqdan.

Deyir ərəb son zaman,
Dartır özünü yaman,
Deyirəm ver neft satım,
Deyir ki, onda batım.

Deyirəm ay müsəlman,
Savadın da natamam,
Mən satsam olar gəlir,
Qızıla dönər dəmir.

Bazara çıxsa neftin,
Bol olar yağın, ətin,
Baha satılsa xammal,
Dolanar bütün mahal.

Mən sənə verim faiz,
Pul gətirim yaz-payız,
Səndə tik evi, mülkü,
Aldatmasın bir tülkü.

Meycer də deyir Buşa,
Ordunu gətirdin cuşa,
Saldın Bağdad, Mosula,
Dedin ki, meydan sula.

İraq tamam dağılıb,
Dönüb yanan sobaya,
Sünni, şiə yığılıb,
Hazırlaşır davaya.

Səddəm ölsə də inan
Tərəfdarları çoxdur,
Binin də doğru, yalan,
Terrorda tayı yoxdur.

Birdə Binin qardaşı,
Pul buraxıb atana,
Neftdən gələn daş-başı,
Atan verib kotana.

Kənddə o ferma tikib,
Qəşəng villa və hovuz ,
Taxıl, yoncanı əkib,
Kökəldir inək, donuz.

Neftə qoyulan maya,
Əgər fayda versəydi,
Dəyməzdi sizə paya,
Ərəb nəfin görsəydi.

Ola bilsin ki, Bində,
Maya qoyub şirkətə,
Sübut varsa əlində,
Car çəkəcək millətə.

Razı salın qardaşın,
Bin əl çəksin sizdən
Pozulmasın yaddaşın,
Pul alınıb Əzizdən.

Rus da bilir bunları
Ekranda da səsləyib,
Əzizə olan borcları,
Rus görünür izləyib.

Yaxşı, keçək İraqa,
Tapdın orda nüvəni?
At hər şeyi qırağa,
Görsət bizə civəni.

Yoxdur nüvə silahı,
Bilir bunları senat,
Gəl unutma Allahı,
Orda sabitlik yarat.

Vəziyyətdən çıxışı,
Mən görürəm bir işdə,
Yola verək bu qışı,
Təhlil edək görüşdə.

Çıxart tankı, ordunu,
Bu ərəb ölkəsindən,
Savaşın yoxdur sonu,
Gəlmirsən öhdəsindən.

Corc Buş fikrə gedir,
Necə çıxsın İraqdan
Bunları təhlil edir,
Süzür viski, araqdan.

Fikirləşməyə dəyməz,
Bəsti öldü ağ, qara
Çıxart ordunu dinməz,
Sağalsın xalqda yara.

Yazığın gəlsin xalqa,
Gəl barışaq ərəblə,
Qalxsa səhrada dalğa,
Vuruşarsan əqrəblə.

Xalq da görür iflası,
Və yaranan vəziyyəti,
Əfqan, İraq bəlası,
Vurub yerə əziyyəti.

Bəşərdə birlik yarat,
Hamı desin  afərin,
Keçəndə mülki parad,
Sənə baş əysin dərin.

Bizdə durum sabitdir,
Sonra o deyir  Buşa,
Şəhər polis, zabitdir,
Köç bura, sakit yaşa.

Bunu nəzərə alıb,
İclas etdi komitə,
Olimpi bura salıb,
Sevindi qoca qitə.

Lakin bu binçilər,
Sabitliyi pozdular,
Partladı metro, evlər,
Sülhü qanla yozdular.

Üç bomba partladı,
Dumanlı albionda,
Axtardılar Bin Ladı
Tapılmadı Londonda.

Cavabdehlik daşıyır,
Dövlət ölən insana,
Zədə alan yaşayır,
Batsa da orda qana.

Bində baxır ekrana
Çəkir sulu qəlyanı,
Sevinir  axan qana,
Adam saymır insanı.

Oğlu da deyir Binə,
Ac silahı belindən,
Gəl insafa, gəl dinə,
Sülh eşidək dilindən.

Etmə sən daha terror,
Siyasi savaş gedəndə,
Cəza versin prokuror,
Məmurlar səhv edəndə.

Ömür qısa, vaxt yetkin,
Sülh lazımdır millətə,
Çoxları düşdü itkin,
Dedin köçdü cənnətə.

Peyğəmbərdir, Əlidir
Allah düşmür dilindən,
Terror qanlı zəlidir,
Qopart onu qəlbindən.

Səni çoxdan axtarır.
O mərkəzi kəşfiyyat,
İnan dövrün qurtarır,
Dağılır şəxsi həyat.

Artıq düşüb izinə,
Kəşfiyyat idarəsi,
Əgər desək düzünə,
Yoxdur başqa çarəsi.

Qurdular Binə tələ,
Pakistan ölkəsində,
Bin orda keçdi ələ,
Güllələr sinəsində.

Bin yetibdir sübuta
Dedilər Obamaya
Qoyun onu tabuta,
Qaldırın tez səmaya.

Atın göydən dənizə
Parçalansın cəsədi,
Çox əzab verib bizə,
Terror olub məqsədi.

Elan edin ABŞ-a,
Deyin xalqa düzünü,
Vurun şəklini daşa,
Millət görsün üzünü.

Barak dedi bitirdik
Terrorçunun işini,
Bini qətlə yetirdik,
Yoxladıq hər dişini.

Etməsəydi o terror,
Sağ qalardı evində,
Erməni də gorbagor,
Silahlanır bu gündə.

Əgər ibrət dərsini
Erməni alsa Bindən,
Cilovlayar hirsini,
Azəri də o gündən.

## MÜNDƏRİCAT

İTTİHAM ........................................................................ 3
QƏLƏBƏ ........................................................................ 48
QARABAĞ ........................................................................ 93
MARAFON ........................................................................ 100

**HAMLET İSMAYILOV**

# İTTİHAM
# və
# SİYASİ İFLAS

(Siyasətləşdirilmiş lətifə)

Naşir: Rafiq Xan-Sayadoğlu
Texniki redaktor: Ülvi Arif
Dizayner: Ceyhun Əliyev
Operator: İradə Əhmədova

Yığılmağa verilmişdir: 05.05.2011
Çapa imzalanmışdır: 07.07.2011
Tiraj 100; ş.ç.v. 8,5
«MBM» MMJ mətbəəsində
çap olunmuşdur